# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 424 Yanvar 2023




AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



# "Xəzər"də İmtahan Həyəcanları












# At Khazar University Exams Thrill



# İÇİNDƏKİLƏR

Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş bilik yarışı ........................ 6
Yunus Əmrə İnstitutunun Bakı nümayəndəliyində "Mənim Qarabağım və ya Qarabağ düyünü" kitabının təqdimatı ........ 8
Xəzər Universiteti Ömər Faiq Nemanzadənin 150 illiyinə həsr olunmuş tədbirdə ........ 10
20 Yanvar faciəsinin anım günü münasibətilə tədbir ........ 11
*A. Əşrəf*. Ölüm var ki, həyat qədər dəyərli! ........ 12
"Xəzər"in tələbələri STEAM Azərbaycan Festivalında üçüncü yerə layiq görülüblər... 15
Erasmus+ Məlumat günü: "HAnimSPAC" layihəsinin təqdimatı ........ 18
"Şuşa ziyalıları: unudulmuş irs" kitabının təqdimatı ........ 23
*Ramilə Qurbanlı*. Cavanşir Quliyev: "Artıq gəlməli idim"(*müsahibə*) ........ 24
Seminar: "Cənubi Qafqazda və Norveçdə akademiya və iş yerlərində mədəniyyətlərarası görüşlər" ........ 28
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ........ 32
İngilis dili və ədəbiyyatı departamenti "Power of Drama" müsabiqəsi keçirdi ........ 38
*İsmixan Yusubov*. Yazılmamış bir yazının həzin hekayəsi ........ 40
Xəzər Universiteti ilə Təhsil Tələbə Krediti Fondu arasında memorandum imzalanmışdır ........ 47
*Vlad Alex Vernygora, Heili Sõrmus*. Görünən perspektiv: Estoniya, Baltik yolu, and Mahatma Qandinin İrsi ........ 48
Əhməd Cavadın 130 illiyinə həsr edilmiş "Mən bir Turan yolçusuyam" adlı elmi-mədəni tədbir ........ 54
Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Gazi Universitetində ........ 59
"Zəngi" və "Zəkalar" liseylərinin şagirdləri Xəzər Universitetində ........ 60
"Xəzər"in "BoomShakaLaka" komandası intellekt yarışında 3-cü yeri tutub ........ 62
Xəzər Universiteti İntellektual Oyun Klubunun 2022-ci il uğurları ........ 63
*Fariba Farhangi*. Şeirlər. ........ 64
"Xəzər"in xarici nəşrləri ........ 66
Elmi Şuranın növbəti iclası ........ 74

*Jurnalın üz qabığında: İqtisadiyyat və menecment fakültəsinin 2-ci kurs tələbəi Çimnaz Osmanova*

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Foto:
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

Redaksiya heyəti:
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

İngilis dilində mətnlərin redaktoru:
Zamirə Qurbanova

Kompüter tərtibatçısı:
Günel Əkbərova

# CONTENTS

**Knowledge Competition Dedicated to the 100th Anniversary of National Leader Heydar Aliyev**.........6
**Presentation of the book "My Karabakh or the Karabakh Knot" at the Baku Representative Office of the Yunus Emre Institute**.........8
**Khazar University at the Event Dedicated to the 150th Anniversary of Omar Faig Nemanzadeh**.........10
**Event on the Occasion of the Commemoration Day of the January 20 Tragedy**.........11
*A. Ashraf.* **Death worth as much as life!** (*in Azerbaijani*).........12
**Students of Khazar University Awarded the Third Place at STEAM Azerbaijan Festival**.........15
**Erasmus+ Information day: Presentation of "HAnimSPAC" Project**.........18
**Presentation of the Book "Intellectuals of Shusha: Forgotten Heritage"**.........23
*Ramila Gurbanli.* **Javanshir Guliyev: "It was time for me to come"**(*in Azerbaijani*).........24
**Workshop on "Intercultural Encounters in Academia and Workplaces in South Caucasus and Norway"**.........28
**News of the Literature of ANAS Named After Nizami** (*in Azerbaijani*).........32
**English Language and Literature Department Holds "Power of Drama" Contest**.........38
*Ismikhan Yusubov.* **A sad story of unwritten article.** (*in Azerbaijani*).........40
**A Memorandum Signed Between Khazar University and Education Student Loan Fund**.........47
*Vlad Alex Vernygora, Heili Sõrmus.* **Seeing a perspective: Estonia, the Baltic Way, and Mahatma Gandhi's Legacy**.........48
**Scientific and Cultural Event Dedicated to the 130th Anniversary of Ahmet Javad "I am a Turanian Traveler"**.........54
**Dean of the School of Humanities, Education and Social Sciences at Gazi University**...59
**Students of "Zangi" and "Zakalar" Lyceums at Khazar University**.........60
**Khazar University's team "BoomShakaLaka" Takes the 3rd Place in the Intellectual Competition**.........62
**Achievments of Khazar University's Intellectual Game Club in 2022**.........63
*Fariba Farhangi.* **Poems**.........64
**"Khazar"s Foreign Publications**.........67
**The Next Meeting of Scientific Council**.........74

*In the cover of the journal: Chimnaz Osmanova, the 2nd year student of the School of Economy and Management*

It has been published since January 1995

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

Khazar University

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 100 İLLİYİNƏ HƏSR EDİLMİŞ BİLİK YARIŞI

# KNOWLEDGE COMPETITION DEDICATED TO THE 100TH ANNIVERSARY OF NATIONAL LEADER HEYDAR ALIYEV




Yanvarın 8-də Xəzər Universitetinin Mərmər salonunda Xəzər Universiteti və Edu Company Təhsil Şirkətinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100-cü ildönümünə həsr edilmiş bilik yarışı keçirilmişdir. Əvvəlcə dövlət himni səsləndirilmiş və Ulu Öndərin həyat yoluna aid geniş videoçarx nümayiş etdirilmişdir.

Tədbiri giriş sözü ilə universitetin rektoru dosent İradə Xəlilova açmışdır. Rektor Ümummilli Lider Heydər Əliyevin həyatına nəzər salmış, onun elm, təhsil və sənətə verdiyi dəyərin əhəmiyyətini vurğulamışdır.

Yarışmanın bədii hissəsində Edu Company Şirkətinin dinləyiciləri milli musiqilər ifa etmişlər.

Bilik yarışında "Suqovuşan", "Ağdam", "Hadrut", "Zəngilan", "Şuşa" və "Laçın" komandaları yarışmışdır. Komandalara cəmi 24 sual verilmişdir. "Şuşa", "Laçın" və "Hadrut" komandaları ardıcıllıqla 1-ci, 2-ci və 3-cü yerlərin qalibləri olmuşlar. Qaliblərə mükafatı Edu Company Təhsil Şirkətinin baş direktoru Samir Əzizov, şirkətin idarə heyətinin üzvləri, Xəzər Universitetinin rektoru İradə Xəlilova və universitetin İctimai əlaqələr və Media üzrə direktoru Əlövsət Əmirbəyli təqdim etmişdir.

Tədbirdə Samir Əzizov yekun söz söyləmişdir.

On January 8, a knowledge competition dedicated to the 100th anniversary of National Leader Heydar Aliyev was held in the Marble Hall of Khazar University, jointly organized by Khazar University and Edu Company. First, the national anthem was played and a wide video about the National Leader's life path was shown.

The event was opened by the rector of the university, Assoc.prof. Irade Khalilova. The Rector reviewed the life of National Leader Heydar Aliyev and emphasized the importance of his value to science, education and art.

In the artistic part of the competition, the listeners of Edu Company performed national music.

"Suguvushan", "Aghdam", "Hadrut", "Zangilan", "Shusha" and "Lachin" teams competed in the knowledge competition. A total of 24 questions were given to the teams. "Shusha", "Lachin" and "Hadrut" teams won the 1st, 2nd and 3rd places accordingly.

The prize was presented to the winners by Samir Azizov, CEO of Edu Company Education Company, members of the company's management board, Khazar University Rector Irada Khalilova, and Alovsat Amirbeyli, the university's Director of Public Relations and Media.

Samir Azizov gave the closing speech at the event.



*Qalib "Şuşa" komandası* *" Shusha"- the winning team*



*II yer-"Laçın" komandası* *" Lachin"- the 2nd place*



*III yer-"Hadrut"komandası* *" Hadrut"- the 3rd place*

# YUNUS ƏMRƏ İNSTİTUTUNUN BAKI NÜMAYƏNDƏLİYİNDƏ "MƏNİM QARABAĞIM VƏ YA QARABAĞ DÜYÜNÜ" KİTABININ TƏQDİMATI

# PRESENTATION OF THE BOOK "MY KARABAKH OR THE KARABAKH KNOT" AT THE BAKU REPRESENTATIVE OFFICE OF THE YUNUS EMRE INSTITUTE





*Selçuk Karakılıç Selchuk Karakılıch*

Yanvarın 9-da Yunus Əmrə İnstitutunun Bakı nümayəndələyində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının 75 illik yubileyi münasibətilə "Mənim Qarabağım və ya Qarabağ düyünü" adlı kitabının təqdimatı olub. Tədbirdə Yunus Əmrə İnstitutu Bakı nümayəndəliyinin, Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, Türkiyə və Azərbaycan mətbuat nümayəndələri, ictimai xadimlər, mədəniyyət və elm nümayəndələri iştirak edib.

Yunus Əmrə İnstitutunun Bakı nümayəndəliyinin rəhbəri Selçuk Karakılıç çıxış edərək, kitab və müəllifi haqqında fikirlərini bildirib: "Hamlet İsaxanlı məktəb qurucusu kimi insan yetişdirmə və təhsil məsələlərində Azərbaycanın ən mühüm fəaliyyət göstərən simalarından biridir. Bəzi insanlar var ki, onların varlıq səbəbi yalnız bəşəriyyətə xidmət etmək, yəni insan yetişdirməkdir. Qəlbində dərin insan sevgisi ilə doğulan bu cür yaradıcı insanlar sırf "qurmaq və yaratmaq" üçün dünyaya gəliblər. Onların daxili aləmində yıxmaq və dağıtmaq, ədəbiyyatlarında uyğunsuz düşüncə və ya mənfilik yoxdur, əksinə, müsbət düşünməklə, günəşin hər cür təsir altında yenidən doğacağına inanaraq, yeni nələrsə yaradacaqlarından əmindirlər. Gecəsini gündüzünə qataraq, Azərbaycan xalqını bütün dünyada qlobal səviyyəyə yüksəltmək, onu düzgün yetişdirmək istə-

On January 9, the book "My Karabakh or the Karabakh Knot" was presented on the occasion of the 75th anniversary of the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, at the Baku representative office of the Yunus Amre Institute. The administration and employees of Yunus Emre Institute Baku representative office and Khazar University, press representatives of Türkiye and Azerbaijan, public figures, representatives of culture and science took part in the event.

Selchuk Karakılıch, the head of Yunus Emre Institute's Baku representative office, gave a speech and expressed his opinion about the book and its author: " "Hamlet Isakhanlı, as the founder of the school, is one of the most important figures in the field of human development and education in Azerbaijan. There are some people whose purpose of existence is only to serve humanity, that is, to raise human beings. Such creative people, born with deep human love in their hearts, were born just to "build and create". There is no incongruous thinking or negativity in their inner world of tearing down and destroying, their literature, on the contrary, they are sure to create new things by thinking positively, believing that the sun will rise again under any influence. Hamlet Isakhanli was one of those who wanted to raise the Azerbaijani people to the global level all over the world and educate

yənlərdən biri də Hamlet İsaxanlıdır. Qurduğu məktəblər, universitet və yazdığı kitablarla hələ də söz söyləməyə, insanları yetişdirməyə davam edir. Onu fərqli və dəyərli edən yüksək intellekti və dünyada baş verənləri qavramasıdır. Hamlet İsaxanlı orijinal və qeyri-adi bir ziyalı kimi, qəlbi mərhəmət və elm müdrikliyi ilə dolu olan Azərbaycanın əfsanəvi portretidir".



*Hamlet İsaxanlı   Hamlet Isakhanli*

Selçuk Karakılıç onu da deyib ki, kitab Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında önəmli mənbə rolunu oynayacaq.

Kitabın müəllifi Hamlet İsaxanlı kitabın yaranma tarixindən danışıb: "Ürəkdən gələn bir işdir. Kitabı Azərbaycan və ingilis dilində yazmışam. İlk olaraq ingilis dilində nəşr edilib. Rus dilinə isə tərcüməçilər tərcümə edirlər. Qarabağ haqqında çox yazıblar və yazacaqlar. Əsas məqsədim bundan ibarət idi ki, mümkün qədər obyektiv yanaşım. Kitabı yazanda etibarlı qaynaqlara müraciət etdim. Gözəl Qarabağ Azərbaycan və Ermənistan, azərbaycanlı və ermənilər arasında gərginliyə, qarşıdurma meydanına, düşmənçiliyin alovlanmasına və savaşlara səbəb oldu. Bu necə oldu? Niyə belə oldu? Nə durur bu məsələnin kökündə? Çıxılmaz vəziyyət, açılmayan düyün necə əmələ gəldi? Düyünü necə açmaq olar? Bu və bənzər suallar, həmçinin 2020-ci ilin payızında baş verən İkinci Qarabağ savaşı ətrafında düşüncələr məni bu yazı üzərində işləməyə çağırdı".

Kitabın təqdimatı müzakirələrlə başa çatıb.

Ölkə saytları tədbir haqqında xəbər yayımlamışdır.

them correctly. With the schools, universities and books he wrote, he continues to speak and educate people. What makes him different and valuable is his high intelligence and understanding of what is happening in the world. Hamlet Isakhanli is a legendary portrait of Azerbaijan as an original and unusual intellectual, whose heart is full of compassion and scientific wisdom."

Selchuk Karakılıch also said that the book will play an important role in conveying the truths of Karabakh to the world community.

Hamlet Isakhanli, the author of the book, spoke about the history of the book: "It is a work from the heart. I wrote the book in Azerbaijani and English. It was first published in English. It is being translated into Russian. More have been written and will be written about Karabakh. My main goal was to be as objective as possible. When I wrote the book, I used reliable sources. The beautiful Karabakh has caused tension, confrontation, enmity and wars between Azerbaijan and Armenia, between Azerbaijanis and Armenians. How did this happen? Why did it happen? What is at the root of this issue? What caused the deadlock, the knot that cannot be untied? Can it be tied? These and similar questions, as well as thoughts about the Second Karabakh war, which took place in the fall of 2020, called me to work on this writing."

The presentation of the book ended with discussions.

The country's websites broadcast news about the event.

*https://medianews.az/2023/01/10/menim-qarabagim-ve-ya-qarabag-duyunu-adli-kitabinin-teqdimat-merasimi-bas-tutub*

*https://teleqraf.com/news/gundem/363211.html*

*https://news24.az/96065-hamlet-saxanlinin-kitabinin-teqdimat-merasimi-kechirildi.html*

*https://news.day.az/culture/1527128.html* və s.



*Hamlet İsaxanlı* *Hamlet Isakhanli*

# XƏZƏR UNİVERSİTETİ ÖMƏR FAIQ NEMANZADƏNİN 150 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏDBİRDƏ

# KHAZAR UNIVERSITY AT THE EVENT DEDICATED TO THE 150TH ANNIVERSARY OF OMAR FAIG NEMANZADEH

Yanvarın 12-də Bakı Kitab Mərkəzində Azərbaycan milli mətbuatının böyük nümayəndəsi, görkəmli publisist, maarifçi və ictimai xadim Ömər Faiq Nemanzadənin 150 illiyinə (1872 – 1937) həsr olunmuş tədbir keçirilib. Tədbirin aparıcısı Xəzər Universiteti "Dünya" məktəbinin əməkdaşı Afaq Qəmbərova idi.

Xalq yazıçısı Anar, ADA Universitetinin rektoru Hafiz Paşayev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı çıxış edərək, Ömər Faiq Nemanzadənin həyat və yaradıcılığından, şəxsi keyfiyyətlərindən, geniş maarifləndirici və publisistik fəaliyyətindən danışmış, görkəmli ədibin ictimai-siyasi baxışlarını diqqətə çatdırıblar.

Tədbirdə Ö.F. Nemanzadənin həyat yolunu işıqlandıran film nümayiş etdirilmiş, aktyor Kamran Yunis Ömər Faiqin məqalələrindən parçalar oxumuşdur.

Tədbirdə Xəzər Universiteti Dekorativ və Tətbiqi Sənət Muzeyinin direktoru, tanınmış xalçaçı rəssam Afaq Kərimovanın batika üslubunda yaratdığı ədibin portretinin təqdimatı olub.

Tədbirin bədii hissəsində Xəzər Universitetinin Kamera orkestrinin (bədii rəhbər – universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, tanınmış pianoçu Zülfiyyə Sadıqova) müşayiəti ilə xalq artisti Elşən Mansurov, əməkdar artistlər İlahə Əfəndiyeva və Sahib Paşazadə çıxış ediblər.

Sonda Ö. F. Nemanzadənin nəvəsi Fuad Pepinov və nəticəsi Ülvi Pepinova babalarına verilən böyük dəyərə görə hamıya minnətdarlıqlarını bildiriblər.

On January 12,an event dedicated to the 150th anniversary of Omer Faig Nemanzadeh (1872-1937), a great representative of the Azerbaijani national press, prominent publicist, educator and public figure, was held at the Baku Book Center.

People's writer Anar, Rector of ADA University Hafiz Pashayev, President of the Azerbaijan National Academy of Sciences, academician Isa Habibbayli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli spoke about the life and creativity of Omer Faig Nemanzadeh, his personal qualities, extensive educational and journalistic activity, and drew attention to the socio-political views of the outstanding writer.

A film illuminating Nemanzadeh's life path was shown, actor Kamran Yunis read excerpts from Omar Faig's articles.

At the event, the director of Khazar University Museum of Decorative and Applied Arts, well-known carpet artist Afag Karimova presented a portrait of the writer created in batik style.

People's artist Elshan Mansurov, honored artists Ilaha Efendiyeva and Sahib Pashazade performed in the artistic part of the event accompanied by Khazar University's Chamber Orchestra (artistic director of which is the head of the university's Music and Art Department, honored teacher, renowned pianist Zulfiyya Sadygova).

In the end O.F.Nemanzadeh 's grandson Fuad Pepinov and great-grandson Ulvi Pepinova expressed their gratitude to everyone for the great value given to their grandfather.

## 20 YANVAR FACİƏSİNİN ANIM GÜNÜ MÜNASİBƏTİLƏ TƏDBİR

Yanvarın 18-də Xəzər Universitetində 20 Yanvar faciəsinin 33-cü anım günü münasibətilə Tarix və arxeologiya departamentinin təşəbbüsü ilə "20 Yanvar hadisələrinin Azərbaycanın yeni və çağdaş dövrü üçün əhəmiyyəti" adlı tədbir keçirildi. Tədbirdə universitetin rektoru Dos. İradə Xəlilova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, departamentin müəllimləri - tarix üzrə fəlsəfə doktorları Rüxsarə Quliyeva, Bayram Quliyev, Söhrab Mustafayev və Baba Bayramlı çıxış etdilər.

## EVENT ON THE OCCASION OF THE COMMEMORATION DAY OF THE JANUARY 20 TRAGEDY

On January 18, on the occasion of the 33rd commemoration day of the January 20 tragedy, an event called "The importance of the events of January 20 for the new and modern era of Azerbaijan" was held at the initiative of the Department of History and Archeology. Rector of the university, assoc.prof Irada Khalilova, director of Public Relations and Media Alovsat Amirbeyli, faculty members of the department - doctors of philosophy on history Rukhsara Guliyeva, Bayram Guliyev, Baba Bayramli and Sohrab Mustafayev spoke at the event.





Tədbirdə 20 Yanvar hadisələrinin tarixi prosesi, əhəmiyyəti, Azərbaycan və xalqımız üçün nəticələri ətraflı şəkildə şərh edildi. Çıxışçılar vurğuladılar ki, xalqımızın müstəqillik əldə etməsində müstəsna rola malik olan 20 Yanvar hadisələri indiyə qədər müxtəlif istiqamətli tədqiqatlara cəlb olunsa da, bu proseslərin ilkin qaynaqlarının daha dərindən tədqiq edilməsi ilə yeni nəticələr əldə oluna bilər. Onlar, bununla birlikdə, tariximizdəki faciəvi hadisələrə kədərli münasibət bildirməkdənsə, bu hadisələri doğru şəkildə analiz edib bu kimi hadisələrin yenidən yaşanmaması üçün bunlardan dərs almağın vacibliyini vurğuladılar.

Müəllim və tələbələrin geniş iştirakı ilə keçirilən tədbirdə 20 Yanvar hadisələri ilə bağlı videoçarx da nümayiş etdirildi. Bundan əlavə, hadisələrin canlı şahidi olmuş müəllimlər də öz xatirələrini bölüşdülər.

At the event, the historical process, importance, and consequences of the events of January 20 for Azerbaijan and our people were discussed in detail. The speakers emphasized that even though the events of January 20, which had an exceptional role in our nation's gaining independence, have been involved in studies in different directions, new results can be obtained by studying the initial sources of these processes more deeply. At the same time, instead of displaying a sad attitude towards the tragic events in our history, they stressed the importance of analyzing these events correctly and taking lessons from them so that such events do not happen again.

A video about the events of January 20 was also shown at the event, which was held with the participation of faculty members and students. In addition, lecturers who witnessed the events shared their memories.

# ÖLÜM VAR Kİ,
# HƏYAT QƏDƏR DƏYƏRLİ!

Bilmirəm lazımsız və yersizdirmi yenidən mənim bu mövzu haqda yazmağım, amma qısa olaraq yazacam.

Lap çoxdan (1978-ci ildə) axşamlar mən Nizami Gəncəvinin "Leyli və Məcnun"unu (2-ci, ya da 3-cü dəfə) yenidən oxumağa başladım, özü də hündürdən və lazımlı avazla. Uşaqlarım da, balaca olduqlarına baxmayaraq, maraqla dinləməyə başladılar. Və bu oxunuş bir neçə axşam davam etdi. Evə gec gələndə uşaqlar narahat olurdular. Nə demək istəyirəm? Bir neçə gün öncə oğlum Şəfayət Moskvadan gəlmişdi. Bir axşam onunla birlikdə və bir neçə nəfərlə sizin "Yeri görünənlər" (kitaba bu ad  çox yaraşır) kitabınız (*redaktoru Hamlet İsaxanlı, tərtibçisi İsaxan İsaxanlı olan "Abdulla müəllim xatirələrdə" adlı kitab nəzərdə tutulur –* **red.**) haqda xeyli fikir mübadiləsi apardıq. Əlbəttə, sizdəki toplantı (*2022-ci il noyabrın 20-də Gürcüstanın Qardabani rayonunun Kosalı kəndində Hamlet İsaxanlının ata ocağında "Abdulla müəllim xatirələrdə" adlı kitabın təqdimat mərasiminin keçirilməsi nəzərdə tutulur–* **red.**) haqqında da geniş danışdım. Çox təsirli anlar oldu. Söhbətin sonunu çox qəmli bir şeirlə bitirdim:

*Yazıq ürək, yenə dərd çək...*
*Qəfil gülmə kədərimə.*
*Gör nə qədər "hayıf" demək*
*Yazılıbdır qədərimə.*

Hamlet müəllim, İsaxanın və sizin xatirələrinizi əvvəlcədən oxumuş olsaydım, atanız haqda xatirə yazmazdım və ya başqa cür yazardım (*"Abdulla müəllim xatirələrdə" adlı kitabdakı "Abdulla müəllim haqqında bir neçə kəlmə" başlıqlı xatirə nəzərdə tutulur –* **red.**).

Kitab haqda nə demək istəyirəm: mənim kimi yaşlıların bu kitabı oxuyub kövrəlməkdən başqa əlindən heç nə gəlmir, heyifsilənməkdən və kövrəlməkdən başqa heç nə. Amma gənclərdən ötrü həyatın bu dolaylı yollarını keçmək üçün, çətin anlarda ruhdan düşməmək üçün, inamını itirməmək üçün, mübariz olmaq üçün, çıxılmaz vəziyyətdən çıxmaq üçün misilsiz bir kitabdır.

Muğamı hamı sevir və hamı qulaq asır, amma onu dinləmək və qavramaq elə də asan iş deyil. Onu, daha yaxşı olar ki, tək, sakit bir yerdə dinləyəsən. O bir həyat yoludur. Muğamı dinləyəndə hansı hissləri keçiririk? Belə təsəvvür edək ki, kimsə həyata qədəm qoyur, yolu da hamardır. Sonra birdən qarşısına hündür bir zirvə çıxır və o, o zirvəni fəth etməli olur, başqa yol yoxdur. O, zirvəni xeyli qalxır, qalxır və birdən aşağıya, dərəyə yuvarlanır. Yenidən qalxır, zirvəyə baxır və dırmaşmağa başlayır, irəliyə doğru can atır, amma yenə də uğursuz olur, lakin təkrarən zirvəyə doğru can atır və çox əziyyətlə olsa da, axır ki, zirvəyə qalxa bilir. Bax, elə burada muğamın o zil səsi adamı yüngülləşdirir, nəfəs dərməyə imkan verir. Bax, İsaxanlıların keçdiyi həyat yolunu mən Muğamla müqayisə etməyə cürət edirəm, çünki həqiqətən bu belədir. Mənim başqa müqayisəm yoxdur. İsaxanlı nəsli ilə fəxr etməliyik. Bu nəsil elimizin-obamızın tarixidir. Bunu bütün yaxşı insanlar bilir, Hamlet müəllim, niyə şikayət edirsiniz:

*Dünyanı tutubdur dinsiz, imansız,*
*Yaşamaq ağırdır, həyat amansız.*

*Mədəd rəhim olan Allaha qalıb,*
*Yaxşılar fağırdır, yamanlar qansız.*

(Bu gileyiniz çox haqlı gileydir, bütün xalqın dərdini dörd sətirə sığışdıra bilibsiniz).

Xatirələr haqda: onların içərisində mənim çox xoşuma gələni, adamı həyəcanlandıran xatirə:

"...Abdulla müəllimi heç vaxt gülən, şit danışan və ya tənbəl-tənbəl yeriyən görməmişdim. Həmişə zəhmli, həmişə harasa tələsən... Bəlkə də elə buna görə onu kədər kimi, qəm kimi xatırlayıram bu gün. Axı kədər də Abdulla müəllim kimi zəhmli, Abdulla müəllim kimi dupdurudur..." (*T.Nəzərli*).

Ən sonda qeyri-adi bir xatirəmi yazmaq istəyirəm. Mən 1963-cü ildə əsgərlikdən qayıtdım. I dərəcəli sürücü idim və mexanika məktəbini də bitirmişdim. Ona görə "DOSAAF" deyilən təşkilatda məni sürücülük öyrətmə şoferi kimi (*инструктор вождения*) işə götürdülər. Bir qrup kursu qurtarandan sonra ikinci qrup başladı. Yadımda qalanlardan – Qədirov Vəli müəllim, Sadıxlı Qara müəllim, Qurbanov Göyçə, İsmayılov Bədirxan, İsmayılov Həmzə,... və Abdulla müəllim.

Mənə marşrut təyin olunmuşdu, o marşrutu QAİ də bilirdi. Yəni marşrutdan çıxmaq olmazdı. Amma növbə Abdulla müəllimə gələndə həmişə deyirdi: gəlsənə yolumuzu dəyişək, Voyovkaya gedək, bacım Mərziyəgilə qədər. Nə söz, razılaşırdım. Bacısı ilə xeyli söhbət edirdi və geri qayıdırdıq.

Hamlet müəllim, yəqin oxumuş olarsınız, Nüsrət Kəsəmənli "Oğru olmaq istəyirəm" adlı şeir yazıb. O günü sizdən çıxarkən mən oğurluq etdim, halal eyləyin, qəzetin arasında bir kitab yox, iki kitab gətirdim.

Bilmirəm Avropanın hansı yazıçısıdır, qulluqçusu ona xəbər verir ki, kitabxanaya oğru gəlib. O deyir: - Qoylama, izlə görək kimin əsərini oğurlayacaq!!!

Allah rəhmət eləsin keçmişlərin hamısına. Sizlərəsə sağlıq və uğurlar diləyirəm.

*Murat, qurban olum sənə, Hamlet olmaq çox çətindir,*
*amma onu öyrənmək sənin və gələcəkdə hamının borcudur!!!*

**A.Əşrəf**
*15.12.2022*



*Nəvəsi Murat ilə*

T.C. GENÇLİK VE SPOR BAKANLIĞI

# "XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

**Aziz Hamlet bey İsahanlı,**

Kırşehir Gençlik ve Spor İl Müdürlüğü Gençlik Merkezimizce gerçekleştirmiş olduğumuz "Bakü – Kırşehir Öğrenci Değişimi Programı" kapsamında, "12-16 Aralık 2022" tarihleri arasında, Türk Dünyasının incisi, külekler şehri Bakü'de, öğrencilerimiz ve genclik rehberlerimizle birlikte unutulmaz günlere tanık olduk.

Görmüş olduğumuz tabii güzellikler, tarihi mimarlık abideleri, sanat eserleri, müzelerde sergilenen medeniyet numuneleri bizleri ve öğrencilerimizi derinden etkiledi. Bu süreç içinde hem Azerbaycan'ın kadim başkenti Bakü ve çevresindeki tarihi, doğal, kültürel zenginlikleri yakından görme, tanıma fırsatı, hem de kardeş Azerbaycan halkının "bizi özlerinden biri olarak gören" sıcakkanlı insanlarıyla tanışma imkanı bulduk.

Bu insanların bizlere karşı ilgi sevgisini gördüğümüzde, iki ülke halkının öz kardeşler olduğuna dair duygu ve düşüncelerimizin gerçek olduğunu anladık.

"İki Devlet Bir Millet" olduğumuzun bilincine vardık. Bütün bu etkinliklerin, iki kardeş ülkenin geleceğinin de temellerini atmış olduğunu, gelecekte ilişkilerimizin bu dostluk ve kardeşlik temelinde inkişaf edeceğini derk ettik.

Bizlere bütün güzellikler, elbette Sizin ve Uluslararası Hazar Üniversitesinin öğrenci değişim projemize destek vermesiyle, sizlerin bize konaklama, ulaşım ve diger imkanları sağlamanız sayesinde gerçekleşti. Bizler de bu projemiz kapsamında sizleri Kırşehir'de ağırlamaya ve dostluk ve kardeşlik ilişkilerimizin gelişmesi için elimizden geleni yapmaya hazırız.

Değerli Hamlet Bey,

Bütün bu güzelliklerden dolayı Size, sizin önderliğinizdeki üniversitenize ve görevlendirdiğiniz personele sonsuz teşekkür ediyor, minnettarlığımızı bildiriyor; kurmuş olduğumuz bu kardeşlik bağlarının bir geleneğe dönüşmesini ve her yıl tekrarlanmasını diliyoruz.

Yeni yılınızı kutluyor, Size uzun ömür, can sağlığı ve uğurlar arzuluyoruz.

Yaşasın Azerbaycan ve Türkiye kardeşliği!

**Numan Nafiz Şahin**
*İl Müdürü*
*04.01.2023*

## LETTER OF THANKS TO KHAZAR UNIVERSITY

The head of Kirshehir Provincial Directorate of Youth Services and Sports of the Republic of Türkiye Numan Nafiz Shahin sent a letter of thanks to the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli.

In the letter, N. Shahin mentions the participation of the delegation of Kirshehir students in various events as a guest of Khazar University on December 12-16, 2022 in Baku, within the framework of the "Baku- Kirshehir Student Exchange Program" implemented by the Youth Center of Kirshehir Provincial Directorate of Youth Services and Sports, their getting acquainted with historical and cultural monuments of Baku and expresses his deep gratitude to the management and employees of the university for their high attention and hospitality.

## "XƏZƏR"İN TƏLƏBƏLƏRİ *STEAM* AZƏRBAYCAN FESTİVALINDA ÜÇÜNCÜ YERƏ LAYİQ GÖRÜLÜBLƏR

2022-ci il dekabrın 5-9-da beynəlxalq formatda təşkil olunmuş *STEAM* Azərbaycan Festivalı -2022 Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə Bakı Sərgi Mərkəzində keçirilib

Xəzər Universitetinin Kompüter mühəndisliyi ixtisasının 2-ci kurs tələbələrindən ibarət 2 komandası festivalın birinci mərhələsinə qatılmış, 138 komanda arasında ən yaxşı 27 komanda sırasına düşərək, finala vəsiqə qazanıb.

Final mərhələsində hər iki komanda üçüncü yerə layiq görülüb.

**Techeads** komandası: Rəvan Şərifov, Güllər Fərzəli, Lalə Məhərrəmova;

**Phantoms** komandası: Zeynal Mərdanlı, Rəqsanə Şəkərova, Leyla Abışlı.

Tələbələr verilən vaxt ərzində abituriyentlərin ixtisas seçiminə və tələbələrin fərdi inkişafına töhfə verəcək innovativ layihə təqdim etmiş, həmin layihəyə dair prototip hazırlayıblar.

## STUDENTS OF KHAZAR UNIVERSITY AWARDED THE THIRD PLACE AT *STEAM* AZERBAIJAN FESTIVAL

On December 5-9, 2022, the *STEAM* Azerbaijan Festival-2022, organized in an international format, was held by the Ministry of Science and Education at the Baku Expo Center.

Two teams of 2nd year Computer Engineering students of Khazar University participated in the first stage of the festival, ranked among the 27 best teams out of 138 teams and qualified for the finals.

Both teams won the third place in the final stage.

**Techheads** team: Ravan Sharifov, Guller Farzali, Lala Maharramova;

**Phantoms** team: Zeynal Mardanli, Ragsana Shekarova, Leyla Abishli.

During the given time, the students presented an innovative project that will contribute to the selection of applicants' majors and personal development of students, and developed a prototype for that project.






*Zeynal Mərdanlı, Leyla Abışlı, Rəqsanə Şəkərova, Lalə Məhərrəmova, Güllər Fərzəli ,Rəvan Şərifov*
*Zeynal Mardanli, Leyla Abishli, Ragsana Shekarova, Lala Maharramova, Guller Farzali, Ravan Sharifov*

Erasmus+
Jean Monnet Modules

## XƏZƏR UNİVERSİTETİNDƏ ŞƏRQ TƏRƏFDAŞLIĞI SAMMİTİNİN SİMULYASİYASI KEÇİRİLMİŞDİR

## KHAZAR UNIVERSITY ORGANIZES A COUNTRYWIDE SIMULATION ON EASTERN PARTNERSHIP SUMMIT

2022-ci il dekabrın 14-də Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin təşkilatçılığı ilə 2021-ci il Avropa İttifaqı-Şərq Tərəfdaşlığı (AİŞT) Sammiti simulyasiya edilmişdir.

Xəzər Universitetinin benefisiarı olduğu Erasmus+ Jean Monnet Module layihəsi çərçivəsində baş tutan simulyasiyada Azərbaycanın 7 ali təhsil müəssisəsində təhsil alan tələbələr iştirak etmişdir.

Simulyasiya oyunundan öncə Erasmus+ Jean Monnet layihəsinin akademik koordinatorları Dr. Elmar Mustafayev və Zibər Hüseynova tərəfindən iştirakçılar Aİ və institutlarının səlahiyyətləri, Avropa Qonşuluq Siyasəti və ŞT barəsində təlimatlandırılmış, üzv dövlətlərin dövlət və ya hökümət başçıları, Aİ Şurasının Prezidenti və ŞT dövlətlərinin liderləri rollarına bölünmüşdür. Eyni zamanda, rollara ayrılmış tələbələrin qarşısında müvafiq olaraq təmsil etdikləri ölkələrin milli maraq və təhlükəsizlikləri, eləcə də ümumavropa maraqlarının dərindən araşdırılması məqsədi qoyulmuşdur.

Aİ və ŞT liderlərinin sammitində ŞT yenilənmiş gündəliyi, COVID-19 pandemiyasının iqtisadi nəticələri, Aİ-nin ŞT ölkələri ilə bağlı iqtisadi və investisiya planları, ŞT ölkələrinin gələcək siyasi və iqtisadi inteqrasiyası, institutlar və yaxşı idarəetmə, enerji təhlükəsizliyi və bazar imkanları müzakirə edilmişdir.

AİŞT Sammitinin simulyasiyası ŞT Birgə Bəyannaməsinin qəbulu ilə yekunlaşıb.

On December 14, 2022, the Political Science and Philosophy Department of Khazar University organized a countrywide simulation of the 2021 Eastern Partnership Summit.

Organized within the Erasmus+ Jean Monnet Module project, the simulation of the Eastern Partnership summit was attended by the students of the 7 Azerbaijani higher education institutions.

Previously instructed by the academic coordinators of the Erasmus+ Jean Monnet project Dr. Elmar Mustafayev and Zibar Huseynova on the roles and competencies of the EU and its institutions, the European Neighborhood Policy and the Eastern Partnership, the students were split into the roles of heads of states or governments of the member-states, the President of the European Council, as well as the leaders of the Eastern Partnership countries. The participant students were tasked with studying the position of their respective roles from the perspective of their national interest and security concerns, as well as the common European interests.




The summit of the EU and Eastern Partnership leaders discussed the renewed agenda of the Eastern Partnership, commitment of the EU to the EaP and vice versa, the economic consequences of the COVID-19 pandemic, economic and investment plans of the EU on EaP countries' economy, further political and economic integration of the EaP countries, institutions and good governance, energy security, and market opportunities.

The simulation of the EU-Eastern Partnership Summit was concluded with the Joint Declaration of the Eastern Partnership.




## TƏLƏBƏLƏR AMEA İNSTİTUTUNDA KEÇİRİLMİŞ SEMİNARDA

2022 - ci il dekabrın 14-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi, t.ü.f.d. Yaqub Məmmədovun rəhbərliyi ilə Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi (II kurs) və Tarix-Coğrafiya müəllimliyi ixtisasında təhsil alan (I kurs) tələbələri AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun keçirdiyi "Daş təpələr: sivilizasiyanın erkən coğrafiyası" mövzusunda (Türkiyənin Şanlıurfa şəhəri yaxınlığında yerləşən "Göbəklitəpə" arxeoloji abidəsinə həsr olunmuş dünyanın mədəni irsi silsiləsindən) seminarda iştirak ediblər.

Seminarda İstanbul Universitetinin Arxeoloji bölümündə "Tarix öncəsi arxeologiyası" departamentinin müdiri, Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təyin olunmuş "Daş təpələr" layihəsinin ümumi rəhbəri Prof. Dr. Necmi Karul "Daş təpələr layihəsi: Göbəklitəpə və Karahantəpə qazıntıları" və həmin departamenin əməkdaşı Doç.Dr. Eylem Özdoğan isə "Sayburc – Şanlıurfada yeni Neolit abidəsinin kəşfi" mövzularında məruzələrlə çıxış ediblər.

Sonra mövzuya aid müzakirələr aparılmış, suallar cavablandırılmışdır.

## STUDENTS AT THE SEMINAR HELD AT ANAS INSTITUTE

On December 14, 2022, students of the School of Humanities, Education and Social Sciences majoring in History (II course) and History-Geography (I course) under the guidance of Yagub Mammadov, the lecturer of the Department of History and Archeology of Khazar University, doctor of Philosophy in History, participated in the seminar on "Stone hills: the early geography of civilization" (from the world cultural heritage series dedicated to the archaeological monument "Gobeklitepe" located near the city of Sanliurfa, Türkiye) held by the Institute of Archaeology, Ethnography and Anthropology of ANAS.

At the seminar, Prof. Dr. Necmi Karul, the head of the "Prehistoric archaeology" department at the Archaeological Department of Istanbul University, the general manager of the "Stone Mounds" project appointed by the Ministry of Culture and Tourism of the Republic of Türkiye made a speech on "Stone Mounds Project: Gobeklitepe and Karahantepe Excavations". Assoc. Prof. Eylem Özdoğan, an employee of the same department, delivered a speech on "Sayburj" – discovery of a new Neolithic monument in Shanliurfa.

Then discussions on the topic were held and questions were answered.




*Hamlet İsaxanlı*

*Hamlet Isakhanli*

## ERASMUS+ MƏLUMAT GÜNÜ: "HAnimSPAC" LAYİHƏSİNİN TƏQDİMATI

2022-ci il dekabrın 16-da Xəzər Universiteti və Milli Erasmus+ Ofisinin birgə təşkilatçılığı ilə Erasmus+ Məlumat günü keçirilib.

Xəzər Universitetində keçən tədbirdə Erasmus+ proqramının təhsildə mövqeyi, üstünlükləri, yeni layihələr və bir çox vacib mövzular ətrafında müzakirələr aparılıb. Tədbirdə müxtəlif universitetlərdən və təşkilatlardan 80-ə yaxın iştirakçı olub. Eyni za-



*Vlad Vernygora*

## ERASMUS+ INFORMATION DAY:PRESENTATION OF "HAnimSPAC" PROJECT

On December 16, 2022, Erasmus+ Information Day was held jointly organized by Khazar University and the National Erasmus+ Office. The position of the Erasmus+ program in education, advantages, new projects and many important topics were discussed at the event held at Khazar University. About 80 participants from various universities and organizations took part in the event. At the same time, online participation was also provided to bring the event to a larger audience.

Professor, academician Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, spoke about the history of Erasmus and the origin of the word Erasmus, and opened the conference by sharing his experience with the event participants. Rector of the University, associate professor Irade Khalilova, greeted the event participants and wished them success.

The head of the National Erasmus+ Office of Azerbaijan, Parviz Bagirov, informed the event participants about the main advantages of the Erasmus+ program for the years 2021-2027 and the current projects. Vusala Gurbanova, leading consultant of the Higher and Secondary Specialization



manda, tədbirin daha böyük auditoriyaya çatdırılması üçün onlayn iştirak da təmin edilib.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı Erasmus-un tarixi və Erasmus sözünün mənşəyi barədə danışıb, təcrübələrini tədbir iştirakçıları ilə bölüşərək, konfransın açılışını edib. Universitetin rektoru dosent İradə Xəlilova tədbir iştirakçılarını salamlayıb və onlara uğurlu iş arzulayıb.

Azərbaycan Milli Erasmus+ Ofisinin rəhbəri Pərviz Bağırov 2021-2027-ci illər üçün Erasmus+ proqra-

*(Ardı səh.20-də)*




*Cavid Ocaqi*  *Javid Ocagi*

Department of the Ministry of Science and Education, spoke about national priorities in the field of higher education and the ministry's support for the Erasmus+ program.

Vlad Vernygora, Khazar University's vice-rector for International Relations, gave enlightening information about the Erasmus+ program and Khazar University's experiences in the field of project writing and management.

Associate professor of the University's Department of Life Sciences Javid Ocagi gave information about the project called "Happy animals for sustainable production and consumption (HAnimSPAC)" founded by the Swedish University of Agricultural Sciences.

This project was funded by the Social Innovation (SI) program for "Academic collaboration in the Baltic Sea region". The project manager is the Swedish University of Agricultural Sciences (SLU), and the partner countries are Latvia, Lithuania and Estonia, Ukraine and Azerbaijan. The goal of the project is to strengthen the exchange of experience at the macro-regional level, the joint development of practices, methodology and internationalization potential within the framework of higher education and scientific research.

Within the framework of the project, surveys were conducted among farmers and consumers

*(To be continued page 20)*




*Vüsalə Qurbanova* *Vusala Gurbanova*

mının əsas üstünlükləri, hazırda aktual olan layihələr barədə tədbir iştirakçılarını məlumatlandırıb. Elm və Təhsil Nazirliyinin Ali və orta ixtisas şöbəsinin aparıcı məsləhətçisi Vüsalə Qurbanova ali təhsil sahəsində milli prioritetlər və nazirliyin Erasmus+ proqramına dəstəyi haqqında çıxış edib.

Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora Erasmus+ proqramı və Xəzər Universitetinin layihə yazılması və idarə olunması sahəsində təcrübələri ilə bağlı maarifləndirici məlumatlar verib.

Universitetin Həyat elmləri departamentinin dosenti Cavid Ocaqi İsveç Kənd Təsərrüfatı Elmləri Universitetinin təsisçisi olduğu "Happy animals for sustainable production and consumption (HAnim-SPAC)" adlı layihə haqqında məlumat verdi.

Bu layihə "Baltik Dənizi Regionunda Akademik Əməkdaşlıq" ("Academic collaboration in the Baltic Sea region") üzrə Sosial İnnovasiya (SI) proqramı tərəfindən maliyyələşdirilmişdir. Layihənin icraçısı İsveç Kənd Təsərrüfatı Elmləri Universitetidir (SLU). Tərəfdaş ölkələr isə Latviya, Litva, Estoniya, Ukrayna və Azərbaycandır. Layihənin məqsədi makro-regional səviyyədə təcrübə mübadiləsini, təcrübələrin, metodologiyanın və beynəlmiləlləşdirmə potensialının ali təhsil və elmi tədqiqat çərçivəsində birgə inkişafını gücləndirməkdir.

Layihə çərçivəsində Azərbaycanın müxtəlif regionlarında heyvanların rifahı ilə əlaqədar fermerlər və istehlakçılar arasında sorğular həyata keçirilmişdir.

Hal-hazırda layihədə iştirak edən Ukrayna və Azərbaycan fermerləri və istehlakçıları arasında aparılmış sorğulardan əldə olunan məlumatların statistik təhlil olunması və məqalələrin yazılması üzərində iş gedir.

Layihə haqqında təqdimat tədbir iştirakçıları tərəfindən böyük maraqla dinlənildi və geniş müzakirələr aparıldı.

regarding the welfare of animals in different regions of Azerbaijan.

At present, the statistical analysis of the data obtained from the surveys conducted among Ukrainian and Azerbaijani farmers and consumers participating in the project and the writing of articles are in progress.

The presentation about the project was listened to by the event participants with great interest and extensive discussions were held.




*Pərviz Bağırov* *Parviz Bagirov*





# "UniLab" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ KONFRANS

# CONFERENCE WITHIN THE FRAMEWORK OF "UniLab" PROJECT




*Jalə Rzayeva* *Elnurə Əhmədzadə*

*Jala Rzayeva* *Elnura Ahmadzadeh*

2022-ci il dekabrın 17-də Xəzər Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) təşkilatçılığı ilə Erasmus+ UniLab layihəsi (610245-EPP-1-2019-1-BE-EPPKA2-CBHE-JP) çərçivəsində ADNSU-da UniLab Milli Konfransı keçirilib.

Konfransda Xəzər Universitenin Karyera Mərkəzinin koordinatoru Elnurə Əhmədzadə, İnkişaf Mərkəzinin layihə meneceri Jalə Rzayeva və layihə assistenti Jalə Əlizadə iştirak ediblər. Konfransın açılış bölməsində Jalə Rzayeva və Elnurə Əhmədzadə tərəfindən UniLab layihəsi çərçivəsində Xəzər Universitetində görülən işlər haqqında yekun hesabat təqdim olunub. Konfrans ADNSU-nun Beynəlxalq şöbəsinin Beynəlxalq layihələr sektorunun müdiri Leyla Nağıyevanın moderatorluğu ilə keçib.

Konfransda "Tələbələrin və işəgötürənlərin vakansiyalara və təcrübə proqramlarına müraciət edərkən qarşılaşdıqları problemlər və onların həlli istiqamətində atılan addımlar" və "Gənclərin iş həyatında yeri və rolu: sənaye və universitet əməkdaşlığı" mövzularında panel müzakirələri aparılıb.

Müzakirələrdə Dövlət Məşğulluq Agentliyinin əməkdaşı Əli Qurbanlı, "Karmasis Azerbaijan" şirkətinin baş direktoru Berna Baysal, "Zəfəroğlu" şirkətinin təsisçisi Zəfər Məmmədov, Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasov, "Bakı Tekstil Fabriki" MMC-nin icraçı direktoru Elçin Babayev, VITAM şirkətinin direktoru Tehran Əliyev, ATEF şirkətinin texniki direktoru Nadir Kərimov və Dadaşlı Biznes Qrupunun direktoru Elxan Sultanlı iştirak ediblər.

Konfrans tələbələrin də fəal iştirakı ilə interaktiv formada keçirilib.

On December 17, 2022, the UniLab National Conference of the Erasmus+ UniLab project (610245-EPP-1-2019-1-BE-EPPKA2-CBHE-JP) was held at the Azerbaijan State Oil and Industry University (ASOIU), organized by Khazar University and the ASOIU.

Elnura Ahmadzade, coordinator of Khazar University's Career Center, Jala Rzayeva, project manager of the Development Center, and Jala Alizade, project assistant, took part in the conference. In the opening section of the conference, Jala Rzayeva and Elnura Ahmadzadeh presented a final report on the work done at Khazar University within the framework of the UniLab project. The conference was moderated by Leyla Naghiyeva, head of the International Projects Sector of the International Department of ASOIU.

At the conference, panel discussions were held on the topics "Problems faced by students and employers when applying for vacancies and internship programs and steps taken to solve them" and "Place and role of young people in business life: industry and university cooperation".

Ali Gurbanli, an employee of the State Employment Service, Berna Baysal, the CEO of Karmasis Azerbaijan, Zafar Mammadov, the founder of Zafaroglu, Elvin Abbasov, the Chairman of the Board of the Azerbaijan Information and Communication Technologies Industry Association (AIKTSA), and Elchin Babayev, executive director of "Baku Textile Factory" LLC, Tehran Aliyev, director of VITAM company, Nadir Karimov, technical director of ATEF company and Elkhan Sultanli, director of Dadashli Business Group took part in the discussions.

The conference was held in an interactive form with the active participation of students.



# TANINMIŞ GƏNC REJİSSOR VASİF AYANIN TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜ
# FAMOUS YOUNG DIRECTOR VASIF AYAN'S MEETING WITH STUDENTS

2022-ci il dekabrın 19-da İngilis dili və Ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirovanın dəvəti ilə tanınmış gənc rejissor, teatr və kino tənqidçisi Vasif Ayanın tələbələrlə görüşü keçirildi. Görüşdə Vasif Ayan tələbələri maraqlandıran suallara cavab verərək, müasir gənclərin həyat tərzi, maraqları, dünyagörüşü, teatr, kino və televiziya verilişləri haqqında düşüncələri ilə bağlı maraqlı və səmimi söhbət apardı.

On December 19, 2022, at the invitation of Firangiz Nasirova, the head teacher of the English language and literature department, a meeting of the well-known young director, theater and film critic Vasif Ayan was held with the students. At the meeting, Vasif Ayan answered the students' questions and had an interesting and sincere conversation about modern youth's lifestyle, interests, worldview, theater, cinema and TV shows.




## "ŞUŞA ZİYALILARI: UNUDULMUŞ İRS" KİTABININ TƏQDİMATI

2022-ci il dekabrın 21-də Xəzər Universitetinin Mərmər zalında Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə tarix elmləri doktoru, professor Nəsiman Yaqublunun "Şuşa ziyalıları: unudulmuş irs" kitabının təqdimatı keçirildi.

N.Yaqublu çıxışında bildidi ki, sovet rejimi dövründə Azərbaycandan və eləcə də əslən Şuşadan olan çoxlu sayda tanınmış ziyalılar vətəni tərk etmək məcburiyyətində qalıb, müxtəlif ölkələrdə yaşayıblar.Onlar, eyni zamanda, həmin ölkələrdə zəngin irs qoyub gediblər. Bu ilin "Şuşa ili" elan edilməsi imkan yaradırdı ki, həmin şəxsiyyətlərin irsi toplanılıb Azərbaycana gətirilsin və kitab olaraq nəşr edilsin. Bu sırada Əhməd bəy Ağaoğlu, Ceyhun bəy Hacıbəyli, Hilal Münşi, Abay Mirzə, Hüseyn Baykara və Hüseyn Mirzəcamalbəyovun adlarını çəkmək mümkündür.

N.Yaqublu qeyd edib ki, bu araşdırma prosesi gələcəkdə də davam edəcək, unudulmuş zəngin mühacirət irsimiz toplanılıb nəşr olunacaq və Azərbaycan tarixini zənginləşdirəcək.

Universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli çıxışında Şuşanın Azərbaycan xalqı və tarixi üçün daşıdığı önəmdən danışdı.

Tədbirin sonunda N.Yaqublu sualları cavablandırıb və müəllif imzasıyla tələbələrə kitab hədiyyə edib.

## PRESENTATION OF THE BOOK "INTELLECTUALS OF SHUSHA: FORGOTTEN HERITAGE"

On December 21, 2022, the presentation of the book "Intellectuals of Shusha: Forgotten Heritage" by Professor Nasiman Yagublu, Doctor of History, was organized by the Department of History and Archeology in the Marble Hall of Khazar University.

N.Yagublu said in his speech that during the Soviet regime, a large number of well-known intellectuals from Azerbaijan and Shusha were forced to leave their homeland and lived in different countries. At the same time, they left a rich legacy in those countries. The announcement of this year as the "Year of Shusha" made it possible to collect the legacy of those personalities and bring them to Azerbaijan and publish them as a book. At the same time, it is possible to mention the names of Ahmed bey Aghaoghlu, Jeyhun bey Hajibeyli, Hilal Munshi, Abay Mirza, Huseyn Baykara, Huseyn Mirzajamalbeyov.

N.Yagublu noted that this research process will continue in the future, our forgotten rich immigration heritage will be collected and published and will enrich the history of Azerbaijan.

Director of Public Relations and Media of the University Alovsat Amirbeyli spoke about the importance of Shusha for the people and history of Azerbaijan.

At the end of the event, N.Yagublu answered questions and presented books signed by the author to the students.

# CAVANŞİR QULİYEV: "ARTIQ GƏLMƏLİ İDİM"



*2022-ci il dekabrın 12-də Pressklub.az (Bakı Mətbuat Klubu) saytında Xəzər Universitetinin professoru, Əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Quliyevlə dərc olunmuş müsahibəni oxucularımıza təqdim edirik.*

Küçəni, evi, bloku rahatlıqla tapdım. 20 il əvvəl də bu mənzildə onunla həmsöhbət olmuşuq. Yoxluğunda ayağım o küçəyə düşəndə, evinə tərəf nisgilli bir həsrətlə baxırdım. Bura onun evidir – elə bil sükuta, kədərə qərq olub. Bircə qayıtsaydı… İkinci mərtəbəyə qalxan pillələnləri çıxıram. Qapını açıb ki, mənzili səhv salmayım, amma mənzil də dəqiq yadımdadır.

Cavanşir Quliyev – özü, sözü, şəxsiyyəti və sənətkarlığı ilə bütünlük təşkil edən adam. 20 il Azərbaycandan kənarda yaşadı… Yaşadımı? Artıq Azərbaycandadır və bütün sualları da özünə vermək şansımız var. Pressklub.az-ın oxucularının qonağı bəstəkar Cavanşir Quliyevdir…

**– Cavanşır müəllim, beşinci aydır Bakıdasınız. Az da olsa, hər hansı məyusluq olub ki, niyə qayıtdım?**

– Yox. Bilmirəm, Allahın işidir, valideynlərimin tərbiyəsidir, bir addımı atmazdan əvvəl çox düşünüb-daşınıram, özüm özümlə çoxsaylı iclaslar keçirib, qərar verirəm. Bütün amilləri nəzərə alıb qərar verdiyim üçün peşman olmuram. Bilirdim hara gəlirəm, hər il ən azı iki dəfə gəlib-getmişəm, xəbərim vardı nə var, nə yox. Buna rəğmən, mənim üçün sanki yeni ölkə oldu. Hərdən mənə elə gəlir ki, başqa ölkəyə gəlmişəm. Qoyub getdiyim Azərbaycan deyil. 20 il keçib, təbii ki, dəyişməli idi. Yaxşı tərəflər də görürəm. Xüsusilə məni rast gəldiyim gənclər sevindirir. Bu boyda problemli cəmiyyətin gənclərinin bir qismi bilikləri, dünyagörüşləri ilə məni şad etdilər.

**– Tələbələriniz deyirsiniz?**

– Təbii ki, gördüyüm gənclər onlardır. Xəzər Universitetində və Bakı Musiqi Akademiyasında dərs deyirəm. Çox rahatlaşdım ki, irəlidə bu gənclərin içindən ölkə idarə edəcək səviyyədə yetişəni də olar. Təbii ki, cəmiyyətin bəzi yaraları hələ də sağalmayıb, davam edir. Mən bilirdim hara gəlirəm, bilə-bilə gəldim, çünki artıq gəlməli idim. Belə deyəndə bəzi həmkarlarınız mənə məşhur bayatını xatırladır:

Gəzməyə qərib ölkə
Ölməyə vətən yaxşı…

Vətən ölmək üçün deyil. Amma həm də elə rahat ölmək üçündür. Bayatının mənası budur ki, vətən sənin ölünə də sahibdir, səni hər cür qəbul edir.

**– Bayaq dediniz bir qism gənclər, onlar elə həmişə bir qism olublar…**

– Bəli, yaxşı ki, o qism var. Olmaya da bilərdi. Məsələn, gedəndə ümidsiz idim. Ora universitetə oxumağa gələn gənclərimizin heç biri mənə bu ümidi vermədi. Hamısı zəngin ailənin ərköyün uşaqları, heç nə bilmirlər. Zor gücünə ingilis dili kurslarına qoyublar ki, xaricə oxumağa göndərsinlər. İngilis dili bilməklə iş tamam olmur. Bilik lazımdır, o yoxdur. Ora gələn kimi ətrafdakı tələbələrin biliklərini, bir-biri ilə elmi mübahisələrini, ağıllı söhbətlərini görüb, büzüşürlər.

**– Bayaq bir ifadə işlətdiniz, özümlə iclas keçirirəm, yaradıcı insanlar iclası sevməz axı...**

– Hər kəs müşkülə düşəndə düşünür, mən bir az iclas formasında düşünürəm. Özüm özümə bəzi suallar verirəm, cavabını axtarıram. Uşaqlıqdan, "Robinzon Kruzo"nu oxuyandan beləyəm. Robinzon Kruzo adaya düşəndə oturub düşünür, hətta qumun üstündə yazır – mənim bu adada olmağımın yaxşı tərəfləri və pis tərəfləri. O vaxtdan bu mənim xoşuma gəlib və elə də analiz edirəm.

**– Özünüzü danladığınız da olur?**

– Təbii ki, peşman olduğum da olur, gərək etməzdim – deyirəm. Hər kəsdə olur. Ancaq unuda bilmədiyim elə böyük peşmanlıq olmayıb.

**– Bəs, ölkədən gedəndə nədən incimişdiniz?**

– Durumum çox pis idi. İşdən çıxarmışdılar. İşim yox, aşım yox, cibim boş, qarnım ac. Belə bir vəziyyət idi, əsəblər də tarımda. Kimsə yardım etmədi, maddi demirəm. Kimsə ümid vermədi, ovundurmadı, dostlarım belə. Müğənnilər də, həmkarlarım da, özünə ziyalı deyən nadanlar da. Oyun seyr edirdilər. Hamısı gördü ki, Cavanşir uduzdu, getdi. Sevinənlər də oldu, xüsusən həmkarlarımın bəziləri dedilər ki, canımız qurtardı ondan, getsin cəhənnəmə.

**– Çəkildi qarşımızdan.**

– Hə… Getdim Kiprə, orda da bir müddət hər şey rəvan olmadı. Nə qədər eyni millət olsaq da...

**– Sıfırdan başlamalı oldunuz.**

– Demək olar ki... Heç kimə kimliyimi demədim, müəlliməm, vəssalam. Bilsəydilər, onlar da məni çəkəcəkdilər ictimai-siyasi işlərə. Orda siyasət daha maraqlıdır, çünki hər seçkidə rəhbərlik dəyişir. 20 il yaşadım orda, beş prezident dəyişdi, 7-8 baş nazir. Hər dəfə dəyişirlər, çünki həyatları pisləşəndə bunu ölkə başçısını dəyişməklə həll edirlər. Ona görə o işlərə qarışmadım. Dərsimi deyib, gəlib əsərlərimi işləyirdim.

**– Əslində siz heç vaxt siyasətdə olmamısınız.**

– Yox, heç vaxt özümü siyasətdə görməmişəm, deyiləm də. Bizim məmləkətin bir xüsusiyyəti var, bir adam tənqid edirsə ki məsələn, avtobus yaxşı işləmir, deyirlər müxalifətçisən. Orta bir vətəndaşın tənqidini qəbul etmirlər. Düşünürlər ki, tənqid edirsə, siyasi marağı var. Mən ömrümdə heç bir siyasi partiyanın üzvü olmamışam, heç sovet vaxtı komsomola üzv olmadım. Konservatoriyaya sənədləri təqdim edəndə, komsomol üzvlüyündən çıxarış gətirib verməlisən, dedim unutmuşam, sən qeyd elə, rayona gedib gətirəcəm, o da qeyd etdi, qoydu qırağa və unutdu. Elə də oxudum, sonra hətta komsomol mükafatı da aldım. Gülüstan sarayında təqdimat idi, Mərkəzi Komitənin məsul işçisinə

yavaşca pıçıldadım ki, indidən deyim, sonra eşidib məni günahlandırmayasınız, mən komsomolun üzvü deyiləm. Bir az dondu, düşündü və dedi ki, daha gecdir, heç kimə demə.

**– Dövlət adamını da yalana ortaq etdiniz? Bəs, o mükafat nəyə görə verilirdi sizə?**

– İki əsərimə görə, mükafatın kağızında belə də yazılıb – "Sazla skripka üçün sonata", bir də "Orkestrlə zurna üçün uvertüra" əsərlərinə görə.

**– Bəs, orda necə oldu, bildilər sizin kim olduğunuzu?**

– Bəstəkar olduğumu internetdən öyrənib bildilər, ünlü bəstəçisiniz – dedilər. Amma ictimai məsələləri bilmədilər. Universitet üçün bəstələrim oldu, musiqilər yazdım, bəzən səhnədə canlı ifa edirdim. Bir dəfə "Şahnaz" operettasında canlı ifa etdim, həm də orkestrin əvəzinə. 2016-cı ildə 15 Noyabr – Şimali Kiprin Cümhuriyyət Günündə Azərbaycanda tədbir keçirilirdi. Mən ordan bir müğənni ilə gəldim, Bakıda Kipri təmsil etdim. Dedilər, məmləkətinizi də görmüş olarsınız, gedin bizi təmsil edin. Hətta burda çıxışımda "mən bir kiprli olaraq" cümləsini işlətdim.

**– Həyatınızı neçə dövrə bölmək olar? Kiprə qədərki və ondan sonra?**

– O da var, amma burda da etaplar olub, 3-5 olar.

**– Hansı dövr daha məhsuldar və ürəyinizcə olub?**

– Kiprdə daha məhsuldar olub. Ürəyimcə deyə bilmərəm, amma məhsuldar olub. Kəmiyyət baxımından ən çox əsərimi orda yazmışam, üç balet, üç oratoriya, bir simfoniya, bir sıra kamera əsərləri. Ordan bura mahnılar, burdakı tamaşalara, filmlərə musiqilər. Burda həyat gərgin olur.

**– Orda yaradıcı rahatlığı tapmısınız.**

– Beş aydır gəlmişəm, görürsən, otağım bomboşdur, işləməliyəm, mümkün deyil, işləməyə qoymursunuz (gülümsəyir – R.Q.).

**– Hə, günah yenə biz jurnalistlərin oldu?**

– Təbii ki, zarafat edirəm. Bir gündə iki televiziya çəkilişinə getmişəm. İmtina etmək olmur, onları da başa düşürəm, eyni simalardan qurtulmaq istəyirlər. Başqa işlər də çıxır, buranın həyatına alışmaq lazımdır. Orda həyat daha aramlı, sakit idi. Kiprliyə səhər-səhər "günaydın" deyirsən, günorta yeməyində cavab verir ki, "günaydın, əfəndim".

**– Son dəfə sizinlə söhbət edəndə, "Müşfiq" oratoriyasını işləyirdiniz və nigaran idiniz ki, oratoriyanı tamamlayıb Bakıda premyera edə biləcəm, ya yox. Şükür etdiniz, çox sevindim.**

– "Müşfiq" oratoriyasını yazanda onun ruhu ilə söhbət edirdim, elə bil, ruhu da insanlardan küskündür, mənə mane olurdu, yazmağa qoymurdu. Gah xəstələndim, gah başqa maneələr çıxdı, çox çətin yazıb tamamladım. Deyirdim Müşfiqin ruhuna ki, sənin üçün edirəm, imkan ver, yazım. Xəstəliyim də elə oratoriya ilə birgə gəldi. O qış Kiprdə çox soyuq oldu. Ordakı evlər soyuğa hesablanmayıb, çünki soyuq olan yer deyil. O soyuq havada, soyuq evdə oturub, təkcə işləyirdim. Gərgin işlədim, soyuq da öz işini gördü.

**– Siz qoyub gedəndə necə olduğu aydındır, qayıdandan sonra nə gördünüz yaradıcı sferada – teatr, kino və musiqidə?**

– Köhnə sistem artıq yoxdur. Kinostudiya dağılır, bilərəkdən durdurdular ki, yenisini quracağıq. Yenisini də cəhdlər oldu, hələ nəticə yoxdur. Kənardan belə görünür- bir qrup kino işçiləri istəyirlər ki, kino, sovet vaxtı olduğu kimi, dövlətdən maliyyə alsın. Hardasa haqlıdırlar, düşünürlər ki, kino adamı qapı-qapı pul yığmaz, kinosunu çəkməklə məşğul olar. Yeni nəsil deyir ki, dövlət pul versə, sifariş verəcək. Azad olaq, istədiyimizi çəkək, amma pul da olsun. Hansı doğru, hansı yanlışdır, zaman göstərəcək. Balaca ölkələrdə, məncə, böyük kinofabrik saxlamağa ehtiyac yoxdur. Çəkdik, bunu harda göstərib pul qazanmaq olar, axı ölkə balacadır. Türkiyə böyükdür, ən kiçik kəndlərində belə kinoteatrları var. Bir filmi yüz nüsxə çıxardıb, ölkənin hər yerinə göndərirlər. Sovet vaxtı deyirdilər biz sizə pul veririk, siz bizi vəsf edin. İndi təbliğat yoxdur, pul da yoxdur. Dövlət deyir,

qazan, çək, çək, qazan. Çox vacib məsələdir, dərindən araşdırılıb, yolu tapılmalıdır. Maliyyə ayıran haqlı olaraq deyir ki, hanı sənin çəkdiyin hansı film son illər bu millətə nə isə verib? Festivallar üçün çəkirsiniz? Yaxşı, bəs millət necə görsün, faydalansın o filmlərdən?

Mən heç bir ideologiyanın tərəfdarı deyiləm. İdeologiya tərəfdarları deyirlər ki, görün sovet vaxtı nə qədər bəstəkar yetişdi. Deyirlər Sovet hökuməti təhsili təşkil etmişdi, oxuyub yetişirdilər. Bəlkə müəyyən həqiqət var, amma istedadı olmadan yetişmək mümkün deyil.

**– İdeologiyanı sevmirsiniz, bəs dinə münasibətiniz necədir?**

– Mən Allahın, yaxud bir yaradıcı qüvvənin olduğuna bəlkə var deyə, düşünürəm, amma din nədir, anlamıram.

**– Hərdən adam düşünür ki, milyonlar inanırsa, yəqin bir bildikləri var.**

– Hə, çünki milyonlar kütlədir, nadan insan daha çoxdur dünyada. Din deyir ki, mən dediyimə kor-koranə inan, sual vermə. Elm deyir ki, yoxlamadan heç nəyi qəbul etmə, sübutunu axtar. Daban-dabana zidd düşüncələrdir. Biri deyir, araşdırmayacaqsan, inanacaqsan, o biri deyir, inanmayacaqsan, araşdıracaqsan. Hərə öz tərəfini seçir, ağlını işlətmək istəyən elm tərəfi seçir, digərləri düşünməyi sevmir, rahat tərəfə keçir. Dindar deyiləm, Allahsız da deyiləm. M.F.Axundov Allahsız deyildi, mollalarla mübarizədə idi. Mən də onun kimi düşünürəm, mən niyə Allahla sizin kimi fırıldaqçılar vasitəsi ilə ünsiyyət qurmalıyam… Bir dəfə bir Avropa alimi demişdi ki, vicdanla yaşayan, amma kilsəyə getməyən insan Allaha o kilsəyə gedən vicdansızdan daha yaxındır.

**– Yazıb-yaratmaq mühiti tapmaq üçün istirahətə getmək istəməzdiniz, ailənin yanına, məsələn?**

– Mən istirahəti axşam yatmaqla edirəm, musiqi ilə məşğul olaraq edirəm. Gedib dənizdə qumda yatmaq mənim üçün istirahət deyil, anlamıram onu. Dincəlmək başqa, əylənmək başqa, mən musiqi ilə dincəlirəm, əylənmək də mənlik deyil. Çalışacam burda bir şərait yaradıb, işləyim.

**– Cavanşir müəllim, tənhalığı özünüz seçdiniz, yoxsa taleyin işidir? Baxıram, otağınız büsbütün nəvənizin şəklidir…**

– Buna tənhalıq deyilməz, yox. Həyatımda iki qadın var – biri qızımdır, biri nəvəm.

**– Amma onları sizə bəxş edən qadın yoxdur həyatınızda.**

– Bu mövzuya toxunmayaq, özlünün icazəsi olmadan kiminsə haqqında danışmaq düzgün olmaz, bəlkə istəmir bunu.

**– 70 yaş çox deyil, amma gəlinən yola baxıb, özünə hesabat vermək üçün kifayətdir.**

– İnana bilmirəm 70 olub. Necə oldu 70 oldu. Arada xəstəlik gəldi, hələ ki, uyutmuşuq xəstəliyi. 70 budursa, 30-da, 40-da da beləydim. Bir bu xəstəlik olmasa, immun sistemim məni qorumaq yerinə, mənə hücum edir. Aradan keçən 20 il elə bil olmayıb, qayıtmışam, evdə hər şey qoyub getdiyim kimidir, elə bil zamana səyahət etmişəm.

70 yaşın hesabatı isə o qədər pis deyil. Arzum, amalım, işim-gücüm ancaq peşəm olub. Soruşsanız ki, qarşıya qoyduğun məqsədə hər baxımdan çata bildinmi, həyata keçirdinmi? Yox. Ümid varmı? Allah ömür versə…

**Ramilə Qurbanlı**

*https://pressklub.az/ekskluziv/sevinenler-oldu-ki-cavansir-uduzdu-getdi-cehenneme-musahibe/*

## SEMİNAR: "CƏNUBİ QAFQAZDA VƏ NORVEÇDƏ AKADEMİYA VƏ İŞ YERLƏRİNDƏ MƏDƏNİYYƏTLƏRARASI GÖRÜŞLƏR"

## WORKSHOP ON "INTERCULTURAL ENCOUNTERS IN ACADEMIA AND WORKPLACES IN SOUTH CAUCASUS AND NORWAY"

İqtisadiyyat və menecment fakültəsi 2022-ci il dekabrın 1-də "Cənubi Qafqazda və Norveçdə akademiya və iş yerlərində mədəniyyətlərarası görüşlər" (CPEA-LT-2017/10016, 2018-2021) mövzusunda seminar təşkil edib.

On December 1, 2022, the School of Economics and Management organized a dissemination workshop within the framework of the "Intercultural Encounters in Academia and Workplaces in South Caucasus and Norway" (CPEA-LT-2017/10016, 2018-2021)



*Irada Khalilova, Kristin Bugge, Arnfinn Muruvik Vonen*

Tədbir layihənin nəticələrini elan etməklə yanaşı, həm də Xəzər Universiteti və Oslo Metropolitan Universiteti arasındakı əməkdaşlığın gələcək perspektivlərini müzakirə etmək məqsədilə təşkil olunmuşdu.

Əvvəlcə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova Oslo Metropolitan Universitetinin nümayəndə heyətini - professor Arnfinn Muruvik Vonen, baş məsləhətçi Mikhail Kharakoz, tədqiqatçı Dr. Jørn Holm-Hansen və baş məsləhətçi Kristin Bugge`ni qəbul edib. Tədris işləri üzrə prorektor, professor Məhəmməd Nuriyev, Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov və Keyfiyyətin Təminatı Mərkəzinin rəhbəri Lyudmila Sotova da görüşdə olublar.

Xəzər Universitetinin rəhbərliyi ilə görüşdən sonra qonaqlar İqtisadiyyat və menecment departamentinin koordinatoru Dr. Maral Camalovanın moderatorluğu ilə layihənin yayılmasına aid tədbirdə iştirak ediblər. Dr.Ceyhun Məmmədov tədbir iştirakçılarını sa-

The purpose of the event was to disseminate the results of the project and at the same time to discuss the prospects of future cooperation between Khazar University and Oslo Metropolitan University.

Initially, the delegation from Oslo Metropolitan University, Prof. Arnfinn Muruvik Vonen, senior advisor Mr. Mikhail Kharakoz, researcher Dr. Jørn Holm-Hansen, and senior advisor Ms. Kristin Bugge were received by Dr. Irada Khalilova, Rector of Khazar University. Prof. Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs, Mr. Vlad Vernygora, Vice-Rector for International Relations, Dr. Jeyhun Mammadov, Dean of School of Economics and Management, and Ms. Lyudmila Sotova, Head of Quality Assurance Center also attended the meeting.

After the meeting with Khazar University administration, the guests participated in the project dissemination event moderated by Dr. Maral Jamalova, Coordinator of Economics and Management Department. Dr. Jeyhun Mammadov,



*Mikhail Kharakoz*



lamlayaraq, Oslo Metropolitan Universitetinin nümayəndə heyətini iştirakçılara təqdim edib. Sonra Oslo Metropolitan Universitetinin nümayəndələri ilə birlikdə Xəzər Universitetinin professor-müəllim heyəti və 2019-cu və 2022-ci illərdə Oslo Metropolitan Universitetində təşkil olunmuş yay məktəblərində iştirak edən magistr tələbələri mədəniyyətlərarası ünsiyyətin müxtəlif perspektivlərinə dair təqdimatlarla çıxış ediblər.

Professor Arnfinn Muruvik Vonen layihə və onun nəticələri haqqında geniş məlumat verdikdən sonra tədbir Mikhail Kharakoz`un "Layihə fəaliyyətlərinə tələbələrin reaksiyaları" və Dr. Jørn Holm-Hansenin "Layihənin nəticələrinin qiymətləndirilməsi" mövzusunda təqdimatları ilə davam edib. Tədbirin birinci hissəsi Kristin Bugge`nin "Dayanıqlı akademik tə-

*(Ardı səh.30-da)*



*Jørn Holm-Hansen*



Dean of the School of Economics and Management, delivered a welcome speech and introduced the delegation of Olso Metropolitan University to the participants. Together with the representatives of Oslo Metropolitan University, the teaching staff of Khazar University and master's students, who participated in summer schools organized at Oslo Metropolitan University in 2019 and 2022, made presentations on different perspectives of intercultural communication.

Broad information on the project and its results was provided by Prof. Arnfinn Muruvik Vonen, followed by the presentations of Mr. Mikhail Kharakoz on "Student responses to project activities" and Dr. Jørn Holm-Hansen on "The evaluation of the project results". The first part of the event was concluded with the speech of Ms. Kristin Bugge on "Building sustai-

*(To be continued page 30)*



*Ceyhun Məmmədov* *Jeyhun Mammadov* *Maral Camalova* *Maral Jamalova*

rəfdaşlıqların qurulması" mövzusunda çıxışı ilə yekunlaşıb.

Tədbirin ikinci hissəsi məzun Asiman Qocayev, magistr tələbələri Rahil Dadaşlı, Nigar Abdullayeva, Zaur Məmmədli və Seymur Bayramlının təqdimatları ilə davam edib. Təqdimatlarda "Gənclərin işində mədəniyyətlərarası amillərin rolu", "Mədəniyyətlərarası ünsiyyətdə maneələr", "Diplomatik mühitdə mədəniyyətlərarası qarşılıqlı əlaqə", "Milli mədəniyyətin 6-D modeli", "Qlobal biznesdə mədəniyyətlərarası kommunikasiya" mövzuları müzakirə olunub. Tədbirin ikinci hissəsi Dr.Maral Camalovanın "Mədəniyyətlərarası ünsiyyətə World Value Survay (WVS) vasitəsilə baxış" mövzusunda çıxışı ilə yekunlaşıb.

Sonda Dr.Ceyhun Məmmədov tədbirdə iştirak etmiş və tədbirin uğurlu keçməsinə dəstək olmuş hər kəsə öz dərin minnətdarlığını bildirib.

nable academic partnerships".

The second part of the event continued with presentations of alumnus Mr. Asiman Gojayev and master students Mr. Rahil Dadashli, Ms. Nigar Abdullayeva, Mr. Zaur Mammadli, and Mr. Seymur Bayramli. The presentations addressed the issues on "The role of intercultural factors on youth affairs", "Barriers to intercultural communication", "Intercultural interaction in diplomatic environment", "6-D model of national culture", and "Intercultural communication in global business". The second part of the event was concluded with the speech of Dr. Maral Jamalova on "Looking at intercultural communication through World Value Survey".

Dr. Jeyhun Mammadov expressed his appreciation to the speakers and deepest gratitude to all who attended the workshop and helped to make it such a successful event with their valuable contributions.



*Seymur Bayramlı* *Seymur Bayramli*




*Zaur Məmmədli* *Zaur Mammadli*

Co-funded by the Erasmus+ Programme of the European Union

## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI ERASMUS+ ECAR LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ BELÇİKADA SƏFƏRDƏ OLUB

Dekabrın 12-17-də Erasmus+ ECAR "Azərbaycanda Rektorlar Konfransının yaradılması" layihəsi çərçivəsində Bakı Biznes Universitetinin koordinatorluğu ilə layihənin tərəfdaşları Belçikada işgüzar səfərdə olmuşdur.

Belçikada yerləşən "EFMD Global" qurumuna olan səfərin məqsədi ali təhsilin beynəlmiləlləşdirilməsində potensialın gücləndirilməsidir.

Layihə çərçivəsində "EFMD Global" və digər Avropa partnyorları tərəfindən keyfiyyətin təminatı, tədqiqatın və tədrisin beynəlmiləlləşməsi, beynəlmiləlləşmə strategiyalarının inkişaf etdirilməsi, beynəlxalq layihələr kimi mühüm mövzularda seminarlar və təqdimatlar keçirilib.

Səfərdə Xəzər Universitetini İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov, Magistratura, doktorantura və elmi işlər üzrə bölmənin rəhbəri Səidə Şərifova təmsil etmişdir.

Qeyd edək ki, səfərdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin, layihə konsorsiumunun üzvü olan Azərbaycanın 17 ali təhsil müəssisəsindən 50-ə yaxın nümayəndə heyəti - rektorlar, prorektorlar və digər məsul şəxslər, o cümlədən xarici tərəfdaşlar qismində İsveçin Kral Texnologiya Universiteti, İspaniyanın Alicante Universiteti, İspan Rektorlar Konfransı, Avropa Beynəlxalq Təhsil Assosiasiyası, Avropa İttifaqının Tədqiqatlar və İnnovasiyalar üzrə Baş Müdirliyi və Alman Akademik Mübadilə Xidmətinin (DAAD) nümayəndələri iştirak ediblər.

## KHAZAR UNIVERSITY STAFF MEMBERS VISIT BELGIUM WITHIN ERASMUS+ ECAR PROJECT

On December 12-17, 2022, within the framework of the Erasmus+ ECAR "Establishment of the Rectors' Conference in Azerbaijan" project, the partners of the project visited Belgium under the coordination of Baku Business University.

The purpose of the visit to "EFMD Global" institution located in Belgium is to strengthen the potential in internationalization of higher education.

Within the framework of the project, EFMD Global and other European partners held seminars and presentations on important topics such as quality assurance, internationalization of research and teaching, development of internationalization strategies, international projects.

In the visit, Khazar University was represented by Ingilab Ahmadov, dean of the Graduate School of Economics and Business, Saida Sharifova, chair of the division of Graduate Studies and Research.

Note that the visit was attended by about 50 delegations from 17 higher educational institutions of Azerbaijan, which are members of the project consortium of the Ministry of Science and Education of the Republic of Azerbaijan - rectors, vice-rectors and other responsible persons, as well as the Royal University of Technology of Sweden, Alicante University of Spain, Representatives of the Spanish Rectors' Conference, the European International Education Association, the European Union Directorate General for Research and Innovation and the German Academic Exchange Service (DAAD) as foreign partners.

**"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU**



## "AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATINDAN SEÇMƏLƏR" KİTABININ TƏQDİMATI

Ədəbiyyat İnstitutunda Türkiyədə işıq üzü görən "Azərbaycan uşaq ədəbiyyatından seçmələr" ("Azerbaycan Çocuk Edebiyatından Seçme Eserler") kitabının təqdimatı keçirilib.

Təqdimatı giriş sözü ilə AMEA-nın prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli açıb. Bildirib ki, "bu nəşr Azərbaycan uşaq ədəbiyyatının Türkiyə təqdimatıdır. Türkiyə Azərbaycan ədəbi əlaqə_lərinin mərkəzində klassik və müasir ədəbiyyat yer tutsa da, uşaq ədəbiyyatı az yer tutur. Bu antoloji Türkiyə ilə Azərbaycan ədəbi əlaqələrində əhəmiyyətli ədəbi hadisədir. Bütün bunlara görə kitabı çapa hazırlayanlara minnətdarlığımı bildirirəm. Çapdan öncə bir neçə dəfə kitabın onlayn müzakirəsini keçirmişik və nəticədə çox mükəmməl bir kitab meydana gəlib. Bu, mühüm elmi nəticə deyil, amma çox mühüm nəticədir".

Tədbirdə İzmir İli, Seferihisar İlçəsi, Təpəcik Ortaokulu müdir yardımçısı, yazar Özgür Koray Yılmaz çıxış edərək vurğulayıb ki, "Uşaqlarımıza miraslarımızı ötürməyimiz lazımdır. Bizim ürəyimiz necə Azərbaycan üçün döyünürsə, gələcək nəsillərin də ürəyi Azərbaycan və Türkiyə üçün döyünməlidir. Ölkə başçılarımızın nümunəvi iş birlikləri bizi bu coğrafiyaya daha yaxınlaşdırdı. Gələcək əməkdaşlıqlarımız barəsində də təkliflərimizi irəli sürmüşük".

Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı və kitabdakı mətnlərin tərtibçisi, "Azərbaycan uşaq ədəbiyyatında məfkurə" adlı ön sözün müəllifi, Uşaq ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent Elnarə Akimova da çıxışlarında nəşrin özəlliklərindən bəhs ediblər.

Şairlərdən filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu, uşaq yazarları Sevinc Nuruqızı, Reyhan Yusifqızı və İbrahim Yusifoğlu çıxışlarında kitab haqqında fikirlərini səsləndirərək şeirlərini oxuyublar.

Sonda İzmir İli, Seferihisar İlçəsi, Necat Hepkon Anadolu Lisesi Görsül Sanatları Öğretmeni, Grafik Kayıtlama Uzmanı, kitabın üz qabığının rəssamı Tuba Yılmaz çıxış edib.

# ÖZBƏKİSTAN ALİMLƏRİ İLƏ BİRGƏ KONFRANS

Ədəbiyyat İnstitutunda Özbəkistandan olan alimlərlə birgə "Türk xalqlarının ədəbiyyatı: ədəbi əlaqələr, ədəbi təsir və tərcümə" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib. Konfrans Ədəbiyyat İnstitutu ilə Kokan Dövlət Pedaqoji İnstitutu, Özbəkistan Respublikası Elmlər Akademiyası Özbək dili, ədəbiyyatı və Folklor İnstitutu, Əlişir Nəvai adına Dövlət Ədəbiyyat Muzeyi və Urganç Dövlət Universitetinin birgə təşkilatçılığı ilə keçirilib. Öncə Azərbaycan-Özbəkistan ədəbi əlaqələrindən bəhs edən kitab sərgisinə baxış olub.




Konfransı giriş sözü ilə AMEA-nın prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli açıb. Akademik qeyd edib ki, tarixdə ilk dəfə olaraq Türk Dövlətləri Şurası səviyyəsində türk dövlətlərinin liderlərinin keçirilən görüşlərində türk dünyasını daha da inkişaf etdirmək üçün möhtəşəm qərarlar qəbul olunub. Türk dünyasının Nobeli – "Əlişir Nəvai mükafatı" təsis edilib. Türk dünyasının bütün sahələrdə inteqrasiyası üçün geniş meydan açılıb. Bu bizim qarşımıza birgə layihələr üzərində işləmək məsuliyyəti qoyur. Yeni ortaq layihələr düşünüb, həyata keçirməliyik.

Özbək ziyalılarından Urganç Dövlət Universitetinin rektoru Bəhrom Abdullayev "Ədəbiyyat dostluğun səfiridir", Kokan Dövlət Pedaqoji İnstitutunun rektoru Xocayeva Dilnoza Şavkatovna "Qardaşlığın yeni səhifələri", Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetinin kafedra müdiri, filologiya elmləri doktoru, professor Nurbay Cabbarov "Əhməd Yəsəvi və Yunus Əmrə hikmətlərində ədəbi təsir və əlaqələr" mövzusunda məruzələrlə çıxış ediblər.

Azərbaycanlı alimlərdən Ədəbiyyat İnstitutunun "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri" şöbəsinin müdiri, filologiya elmləri doktoru, Almaz Ülvi Binnətova "Niyə "Ötən günlər"i yenidən xatırladıq?!" və Bakı Dövlət Universitetinin professoru Ramiz Əskər "Özbək ədəbiyyatı Ramiz Əskərin tərcüməsində Azərbaycan dilində" adlı məruzə ediblər.

Eyni zamanda Əlişir Nəvai adına Dövlət Ədəbiyyat Muzeyinin direktoru, filologiya elmləri doktoru, professor Cabbor Eşonkulovun "Kitabi-Dədə Qorqud"un bədii təfsiri" və Kokan Dövlət Pedaqoji İnstitutunun professoru, filologiya elmləri doktoru Zeboxon Qabilovanın "Füzuli və Əmiri" mövzularında məruzələri dinlənilib.

Konfransın açılış mərasimində ədəbiyyatşünas alimlərdən Məti Osmanoğlu, Yaşar Qasımbəyli, Dilşad Qayıbov və başqaları çıxışlarında bu cür işlərin həyata keçirilməsinin əhəmiyyətindən danışıblar.

Konfrans bölmə iclasları ilə davam edib.




# "POETİKA.İZM" JURNALININ NÖVBƏTİ SAYI

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Poetika. izm" elmi jurnalının növbəti (2022, № 1) sayı nəşr olunub. Jurnal "ResearchGate", "OAJI. net", "Open Academic Journals Index", "Internet Archive" beynəlxalq indeksləmə sistemlərinə daxildir.

"Poetika.izm" elmi jurnalının baş redaktoru AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir. Bu nömrə akademik İsa Həbibbəylinin "Azərbaycan sentimentalizminə baxış" məqaləsi ilə başlayır.

Jurnalın baş redaktor müavini filologiya elmləri doktoru, professor Tahirə Məmməd, məsul katibi filologiya üzrə fəlsəfə doktoru, dosent Maral Yaqubova, məsul redaktoru isə Ülkər Hüseynovadır.

Jurnal ədəbiyyatın mahiyyətini, qanunlarını, kateqoriyalarını, kəmiyyət və keyfiyyət göstəricilərini, məqsəd və funksiyasını, ədəbi dəyər məsələsini, ədəbi əsərin ərsəyə gəlmə şərtlərini mövzu olaraq seçən və işləyən ədəbiyyat nəzəriyyəsinə dair müxtəlif səpkili məqalə və araşdırmalara üstünlük verir.

"Elm və təhsil" nəşriyyatında çap olunan jurnalın bu sayı "Tarixi poetika", "Ədəbi təhlil. Mətn poetikası", "Janr, struktur, forma", "İnterdisiplinar və multidisiplinar əlaqə", "İZM", "Təhlil metodları" və "Tərcümə nəzəriyyəsi" bölmələrindən ibarətdir. "Poetika.izm"in redaksiya heyətinə Azərbaycan, İtaliya, Latviya, Yaponiya, Polşa, Türkiyə, Bosniyanın alimləri daxildir.

Qeyd edək ki, Jurnal AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 04 dekabr 2013-cü il tarixli 7 saylı qərarı ilə Ədliyyə Nazirliyindən verilmiş 26 noyabr 2013-cü il tarixli, 3821 saylı şəhadətnamə əsasında təsis edilmişdir.

# ƏDƏBİYYAT İNSTİTUTUNUN ALİMLƏRİ "QABDULLA TUKAY – 135" YUBİLEY MEDALI İLƏ TƏLTİF OLUNUB

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun alimləri Tatarıstanın böyük ziyalısı Qabdulla Tukayın 135 illiyi münasibəti ilə medalla təltif olunublar.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli və filologiya üzrə fəlsəfə doktoru, dosent İsmixan Osmanlı "Qabdulla Tukay – 135" yubiley medalına layiq görülüblər.

Medalın təltif komissiyasının sədri Rusiya Federasiyası Tatarısatn Respublikasının baş nazirinin müavini R.K.Axmetşindir.

## “MOLLA PƏNAH VAQİF. HƏYATI VƏ YARADICILIĞI” KİTABI İŞIQ ÜZÜ GÖRÜB




Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən “Molla Pənah Vaqif. Həyatı və yaradıcılığı” (kollektiv) monoqrafiyası çap olunub. “Sənətkarın elmi pasportu seriyası”nın 31-ci nəşri olan “Molla Pənah Vaqif. Həyatı və yaradıcılığı” kitabı Ədəbiyyat İnstitutunun Elmi Şurasının 6 aprel 2022-ci il tarixli (protokol № 3) qərarı ilə nəşr edilib.

Layihənin müəllifi və “Molla Pənah Vaqif haqqında söz” başlıqlı ön sözün müəllifi AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir. Kitabın elmi redaktoru filologiya elmləri doktoru Mahirə Quliyeva, məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlıdır.

Monoqrafiyada görkəmli Azərbaycan şairi, ictimai və dövlət xadimi Molla Pənah Vaqifin həyatı və yaradıcılığından bəhs olunur. Kitabda şairin Azərbaycan poeziyasındakı mövqeyi, yaradıcılığının müxtəlif aspektlərdən təhlili ilə yanaşı, ədəbi irsinin nəşri və tədqiqi tarixi, ədəbiyyatda bədii obrazı da təqdim edilir.

Kitabda yeddi müəllifin on iki araşdırması yer alıb. 342 səhifəlik monoqrafiya “Elm və təhsil” nəşriyyatında nəşr edilib.




## “AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞI” JURNALININ NÖVBƏTİ SAYI

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun “Azərbaycan ədəbiyyatşünaslığı” elmi jurnalının növbəti (2022 №2) sayı nəşr olunub. Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərin siyahısına daxildir.

“Azərbaycan ədəbiyyatşünaslığı” elmi jurnalının baş redaktoru AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir. Bu say akademik İsa Həbibbəylinin “Böyük qayıdış epopeyası” adlı məqaləsi ilə açılır. “Elm və təhsil” nəşriyyatında çap olunan jurnalın bu nömrəsi “Azərbaycan ədəbiyyatı”, “Folklorşünaslıq”, “Yubileylər” və “Resenziyalar” bölmələrindən ibarətdir.

“Azərbaycan ədəbiyyatşünaslığı” jurnalının beynəlxalq redaksiya heyətinə Türkiyə, Özbəkistan, Fransa, Gürcüstan, Tatarıstan, Hindistan, Polşa və Monqolustanın alimləri daxildir. Elmi-nəzəri jurnalda məqalələr Azərbaycan, rus, ingilis və türk dillərində dərc edilir.

**Gülnar Səma**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*İctimaiyyətlə əlaqələr şöbəsi*

## ULUDAĞ UNİVERSİTETİNİN MÜƏLLİMİNİN ONLAYN MÜHAZİRƏSİ

2022-ci il dekabrın 22-də Xəzər Universitetinin Həyat elmləri departamentinin Baytarlıq təbabəti üzrə koordinatoru b.ü.f.d. Ayaz Məmmədovun dəvəti ilə Türkiyənin Uludağ Unuversitetinin Baytarlıq fakültəsinin parazitologiya şöbəsinin müəllimi Dos. Dr. Onur Girişgin`in Xəzər Universitetinin Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələrinə "Türkiyədə bal arısı xəstəliklərinin ümumi vəziyyəti" mövzusunda onlayn mühazirəsi keçirildi. O.Girişgin Türkiyədə yayılan bir sıra infeksion və parazitar arı xəstəlikləri, xəstəliklərin təyini və onlara qarşı mübarizə üsulları barədə ətraflı məlumat verdi.

Sonda O.Girişgin tələbələrin çoxsaylı suallarını cavablandırdı.

## ONLINE LECTURE BY ULUDAG UNIVERSITY FACULTY MEMBER

On December 22, 2022, at the invitation of Ayaz Mammadov, PhD in Biology, Coordinator of the Department of Life Sciences of Khazar University, Assoc. Dr Onur Girishgin, the faculty member of the parasitology department of the Faculty of Veterinary Medicine of Uludag University, Türkiye, gave an online lecture to Khazar University students majoring in veterinary medicine on "General situation of honey bee diseases in Türkiye" O.Girishgin gave detailed information about a number of infectious and parasitic bee diseases spread in Türkiye, diagnosis of diseases and methods of combating them.

In the end, O.Girishgin answered many questions of the students.

## "TÜRK DÜNYASINDA ƏLİFBA MƏSƏLƏSİ - KEÇMİŞDƏN GÜNÜMÜZƏ" ADLI İNTEQRATİV DƏRS

2022-ci il dekabrın 22-də Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zivər Hüseynli Baylan tərəfindən "Əski Azərbaycan yazısı" fənni üzrə təhsil alan tələbələr üçün inteqrativ dərs təşkil olundu. Dəvət edilmiş mütəxəssis - Azərbaycan Dillər Universitetinin (ADU) Türkiyə Araşdırmalar Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Elçin İbrahimov "Türk dünyasında əlifba məsələsi - keçmişdən günümüzə" mövzusunda çıxış etdi.

"Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili" və "Azərbaycan Xalq Cümhuriyyəti: dil məsələləri" mövzusunda geniş tədqiqatlar aparmış Elçin İbrahimov tələbələrə dəyərli məlumatlar verdi və onların suallarını cavablandırdı. Elçin İbrahimov tədbirin sonuda müəllifi olduğu "Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili" adlı kitabını universitet kitabxanasına hədiyyə verdi. Tədbirdə departamentin müəllimləri - filologiya üzrə fəlsəfə doktoru, dosent Xatirə Yusifova və Aynur Qəzənfər qızı da iştirak etdilər.

## AN INTEGRATIVE LESSON "THE ISSUE OF THE ALPHABET IN THE TURKISH WORLD - FROM THE PAST TO THE PRESENT"

On December 22, 2022, an integrative lesson was organized for students studying "Old Azerbaijani script" by the lecturer of the Department of Languages and Literatures of Khazar University, doctor of philosophy in philology, associate professor Zivar Huseynli Baylan. The invited expert - director of the Turkish Research Center of the Azerbaijan University of Languages (AUL), doctor of philosophy in philology, associate professor Elchin Ibrahimov spoke on the topic "The issue of the alphabet in the Turkish world - from the past to the present".

Elchin Ibrahimov, who has conducted extensive research on "Common alphabet, spelling and communication language of the Turkic peoples" and "Azerbaijan People's Republic: language issues", gave valuable information to the students and answered their questions.

At the end of the event, Elchin Ibrahimov presented his book "Common alphabet, spelling and communication language of the Turkish peoples" to the university library. The faculty members of the department - doctor of philosophy in philology, associate professor Khatira Yusifova and Aynur Gazanfargizi also participated in the event.



# XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ "NƏRİMAN NƏRİMANOVUN XATİRƏ MUZEYİ"NDƏ
# STUDENTS OF KHAZAR UNIVERSITY AT "NARIMAN NARIMANOV MEMORIAL MUSEUM"

2022-ci il dekabrın 26-da Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi ixtisasının tələbələri Tarix və arxeologiya departamentinin müəllimi Kəmalə Mustafayevanın rəhbərliyi ilə Nəriman Nərimanovun xatirə muzeyinə səfər ediblər.

Muzeyin əməkdaşı, böyük elmi işçi İradə Əliyeva tərəfindən tələbələrə 4 otaqdan - yemək, həkim kabineti, qonaq və yataq otaqlarından ibarət ekspozisiyalar və N. Nərimanovun ədib, maarifçi, həkim, publisist, diplomat və dövlət xadimi kimi fəaliyyəti haqqında geniş məlumat verilmişdir. Xatirə muzeyində gördükləri tələbələrin xüsusi diqqəti və marağı ilə qarşılanmışdır.

Nəriman Nərimanovun qardaşı nəticəsi və muzeyin təsisçisi Kamilə Hüseynova tələbələrə N. Nərimanovun "Ucqarlarda inqilabımızın tarixinə dair" kitabını hədiyyə etmişdir.

On December 26, 2022, students majoring in History teaching of the School of Humanities, Education and Social Sciences visited the memorial museum of Nariman Narimanov under the guidance of the lecturer of the Department of History and Archeology Kamala Mustafayeva.

Irada Aliyeva, an employee of the museum and a senior researcher, gave the students extensive information about the expositions consisting of 4 rooms - dining room, doctor's office, living room and bedroom, as well as N.Narimanov's activities as a writer, educator, doctor, publicist, diplomat and public and political figure of the state. Their attention and interest was piqued by what they saw in the memorial museum.

Kamila Huseynova, the great-granddaughter of Nariman Narimanov's brother and the founder of the museum, presented N. Narimanov's book "On the history of our revolution in the remote areas" to the students.

# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ "POWER OF DRAMA" MÜSABİQƏSİ KEÇİRDİ

# ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT HOLDS "POWER OF DRAMA" CONTEST



**Münsiflər heyəti:** *Firəngiz Nəsirova, Nailə Qasımova, Kəmalə Əsgərova,Həmzə Həsənov, Milana Abbasova, İlham Tağıyev*

**Jury member:** *Firangiz Nasirova, Naila Gasimova, Kamala Askerova, Hamza Hassan, Milana Abbasova Ilham Taghiyev*

2022-ci il dekabrın 24-də İngilis dili və ədəbiyyatı departamenti tərəfindən "Power of Drama" müsabiqəsi keçirildi. Müsabiqədə "Dorian Qreyin portreti" və "Drakula" romanlarının səhnələşdirilmiş versiyaları İqtisadiyyat və menecment fakültəsinin və Təbiət elmləri və mühəndislik fakültəsinin tələbələri tərəfindən İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Leyla Cumayevanın mentorluğu ilə tamaşaya qoyuldu. Bununla yanaşı Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbələri İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Oluwasei Sodia`nın mentorluğu ilə "Sindirella" və departamentin müəllimi Rana Özen`in rəhbərliyi altında "Kimyagər" romanının səhnələşdirilmiş variantlarını nümayiş etdirdilər.

Bütün ədəbi əsərlərin səhnələşdirilməsi zamanı tələbələrin çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılandı. Sonra İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşları Hüseynağa Rzayev, Kəmalə Əsgərova, Firəngiz Nəsirova, Nailə Qasımova, İl-

On December 24, 2022, English Language and Literature Department successfully conducted contest on "Power of Drama". In the contest, the staged versions of the novels "The picture of Dorian Gray" was performed by the students of School of Economics and Management and "Dracula" by the students of the School of Science and Engineering. The novels were adapted to the stage by the instructor of English Language and Literature Department, Leyla Jumayeva. Furthermore, the students of School of Humanities, Education and Social Sciences performed the staged versions of "Cinderella" mentored by the instructor of English Language and Literature Department Oluwasei Sodiya and novel "The Alchemist" under the supervision of the Department instructor Rana Ozen.

The students' brilliant performances in all staged adaptations of the literary works received hearty applause from the audience. After the students' performances, a jury consisting of the staff members at English Language and Literature Department,

ham Tağıyev, o cümlədən departament müdiri vəzifəsini icra edən Milana Abbasova və malayziyalı Həmzə Həsəndən ibarət münsiflər heyəti tələbələrin çıxışlarını qiymətləndirdi. Səsvermə nəticəsində "Dorian Qreyin portreti" tamaşası və onu ifa edən İqtisadiyyat və menecment fakültəsinin tələbələri qalib elan edildi.

Bundan əlavə, səsvermə zamanı müxtəlif nominasiyalar üzrə qaliblər də müəyyən olundu:

Aktyorluq üzrə mükafat Şaesta Malekan'a (Humanitar, təhsil və sosial elmlər fakültəsi); Xarakterin inkişafı üzrə Minayə Hacızadəyə (İqtisadiyyat və menecment fakültəsi); Səs keyfiyyətində mükəmməlliyə görə Rəvan Əlizadəyə (Təbiət elmləri və mühəndislik fakültəsi); Hərəkət mükəmməlliyinə görə Afaq Mustafazadəyə (Humanitar, təhsil və sosial elmlər fakültəsi); Şərhdə mükəmməlliyə görə Həvva Şahbazovaya (İqtisadiyyat və menecment fakültəsi); Artikulyasiyada mükəmməlliyə görə Hüseyn Dadaşova (İqtisadiyyat və menecment fakültəsi); Xarakter münasibətlərində mükəmməlliyə görə Fatimə Əliyevaya (Humanitar, təhsil və sosial elmlər fakültəsi); Tamaşaçıların məlumatlandırılmasında mükəmməlliyə görə Ayət Bəşirzadəyə (İqtisadiyyat və menecment fakültəsi); Ən yaxşı hekayəçi mükafatı Nurcan Qazizadəyə (Humanitar, təhsil və sosial elmlər fakültəsi) verildi.

Tədbir iştirakçıları müsabiqə qaliblərini təbrik etdilər.

including Milana Abbasova the acting head of the department and lecturers Huseynagha Rzayev, Kamala Askerova, Firangiz Nasirova, Naila Gasimova, Ilham Taghiyev, and international jury member from Malaysia, Hamza Hassan, voted for 4 staged plays to determine the winner. As a result of voting, "The picture of Dorian Gray" and the students of School of Economics and Management were announced as the winner. In addition, the winners in different categories were also determined in voting process:

Award for excellence in acting– Shayesta Malekan (School of Humanities, Education and Social Sciences); Award for character development– Minaya Hajizadeh (School of Economics and Management); Award for excellence in voice quality – Ravan (Alizadeh School of Science and Engineering); Award for excellence in movement quality– Afag Mustafazadeh (School of Humanities, Education and Social Sciences); Award for excellence in interpretation – Havva Shahbazova (School of Economics and Management); Award for excellence in articulation– Huseyn Dadashov (School of Economics and Management); Award for excellence in character relationship – Fatima Aliyeva (School of Humanities, Education and Social Sciences); Award for excellence in audience awareness – Ayat Bashirzade (School of Economics and Management); Award for best narrator – Nurcan Qazizadeh (School of Humanities, Education and Social Sciences).

The event participants congratulated the competition winners.



*"Dorian Qreyin portreti" tamaşasını ifa edən qalib komanda*
*The winning team performing " The Picture of Dorian Gray"*




*Unudulmaz Ata-Oğul –*
*Tofiq və İsmayıl Hacıyevlərin əziz xatirəsinə*

# YAZILMAMIŞ BİR YAZININ HƏZİN HEKAYƏSİ

Əvvəla yazılmamış bu yazının nə zamandan bəri yazılmaq istəndiyi məsələsinə aydınlıq gətirmək istəyirəm. Və bunun üçün nə az-nə çox, tam 42 il geriyə, 1980-ci ilin iyul ayına qayıtmalıyam. Bu məqsədlə mən 1961-ci ildən 2005-ci ilə qədər aralıqsız yazmış olduğum gündəliyimə müraciət edəcəyəm.

...Gecə (1980-ci ilin iyul ayının 3-dən 4-ə keçən gecə) oradan Fərhadgilə (Hüseynov – indi ADA Universitetinin professorudur) gəldim və birlikdə Cəlilin (Nağıyev – indi BDU- nun filologiya fakültəsində kafedra müdiridir) yanına getdik. Orada məlum oldu ki, bizim dostumuz İsmayılın (Məmmədov – indi BDU, filologiya fakültəsinin professoru) bacısı oğlu İsmayıl (professor Tofiq Hacıyevin oğlu) Bilgəhdə küləkli havada çimən zaman atasının gözü qarşısında dənizdə gözdən itib...

Gecə saat 1 radələrində bir yol maşını ilə Bilgəhə, çimərliyə, İsmayılın son çimdiyi yerə getdik. Orda 5-6 maşın vardı və ətrafda da xeyli adam yığışmışdı. Səhərə qədər yatmadıq, tonqal qırağında oturub, dənizin uğultusuna qulaq verdik. Dəniz coşmuşdu, elə bil verilmiş qurbanın azlığından qeyzə gəlmişdi. Elə hey hayqırır, ulayır və özünü aramsız olaraq sal qayalara çırpırdı.

Dalğalar qoşun-qoşun üstümüzə hücum çəkirdi. Dəniz qurbanını heç kimə vermək, heç kimlə bölüşmək istəmirdi. Əlinə ətli sümük keçirmiş quduz köpək kimi daim mırıldayır, ona yaxınlaşmağa cəsarət etdikdə isə, bu mırıltı müdhiş, tükürpədici bir nəriltiyə çevrilirdi.

Saat 3 radələrində Kamillə (Kamil Vəli Nərimanoğlu) sahil boyu bir xeyli uzaqlara getdik, bəlkə sahildə bir nişanəyə rast gələrik deyə. Nəticəmiz o oldu ki, qəfil gələn dalğa məni dizlərimə qədər islatdı. Əslində oradakı uşaqların hamısı islanmışdı. Gəlib tonqal ətrafında bir qədər qurunduq və

təxminən saat 5 ərafında, hava işıqlanmağa başlayanda sahil boyu axtarışa çıxdıq. Mən, Oqtay (göyçaylı, Qara Oqtay), Fərhad, Vaqif (Bayatlı Odər) və daha bir neçə adam sağ tərəfə, bir qrup adam da sol tərəfə doğru olmaqla.

Sonra səhər açıldı. Dalğıc gələsidir-dedilər. Bizim sağa gedən qrupumuz bir maşına minib, "Zəfəran" yeməkxanasına gəldik. Bir yumurta yedim və bir stəkan çay içdim. Qayıtdıq. Dedilər dənizdə, uzaqda nə isə var. Kater gəldi və məlum oldu ki, bu "nə isə" üstünə qağayılar qonmuş taxta parçası imiş. Sonra vertolyot gəldi və birgə (aşağıdan və yuxarıdan) axtarış başlandı. Artıq lap əldən-dildən düşmüşdük və hələlik də bir şey yox idi. Nəhayət, bizim fakültənin müəllimi, Sisyandan olan fizik Səttarın maşını ilə evə qayıtdım...

İsmayıl haqqında növbəti bir informasiya parçasını əldə etmək üçün 30 il geriyə, gündəliyimdəki 5 may 1992-ci il tarixinə səfər etmək lazım olacaq:

...1991-ci ilin iyun ayında hörmətli dilçi alimimiz, BDU Türkologiya kafedrasının müdiri Tofiq Hacıyevlə onun kafedrasında söhbət əsnasında, necə oldusa, oğlum Arazdan, onun şəkil çəkməsindən danışdım və şəkillərin yanımda olan surətlərindən






*Soldan 2-ci Tofiq Hacıyev, 4-cü İsmayıl Hacıyev*

bəzilərini ona göstərdim (o vaxt Məmməd İsmayılın "Gənclik" jurnalında Araz və onun şəkilləri haqqında məlumat getmişdi, hətta qonorar da almışdı adam).

Tofiq müəllim əvvəl mənim oğluma, sonra da özümə afərin deyib, soruşdu ki, mən onun mərhum, həmişə cavan qalacaq böyük oğlu İsmayılın kitabını görmüşəmmi? Etiraf etdim ki, xeyr. Onda Tofiq müəllim xüsusi bir məhəbbət və kövrəkliklə İsmayıldan, onun orijinal düşüncə tərzindən, əhatəli biliyindən və özünə məxsus yumorundan söhbət açdı. Sonra nə fikirləşdisə, aşağı əyilib stolun siyirməsindən adı keçən kitabı çıxartdı və mənə tərəf uzadıb, oxuyarsan – dedi.

Əbəs yerə deməyiblər ki, əsl yazar öz yazılarından boylanar. İsmayıl da beləcə Günəş kimi, Dan Ulduzu kimi öz yazılarından boylandı, gözümüzün önündə ucaldı, zenitə qalxıb bizi az qala yandırıb-yaxdı, gözlərimizdə yaş damlaları titrəşdi. Bunlar Dünyanın özü kimi təzadlı sevinc və kədər damlaları idilər, bu, əslində, "göz yaşları içərisində gülüş" idi.

Bu sətirlərin və bundan sonra yazılmalı olacaq sətirlərin yaranmasına səbəb həmin o kitab oldu. Nə mənim uşaqlarla birlikdə gecə səhərə qədər dəniz qırağında İsmayılı haraylamağım, nə atası Tofiq müəllimin kövrək, şair Ramiz Rövşənin yanıqlı, nə də dayısı İsmayılın ağrılı söhbətləri bu kitaba bu işdə şərik ola bilmirlər mənim qəlbimdə.

Doğrusu, əvvəl mən ehtiyat edirdim ki, kitabı oxuyanda hörmət etdiyim adamların söhbətlərinə uyğun olmayan səhnələrlə rastlaşa bilərəm. Necə deyərlər, deyir "Adamın adını eşit, üzünü görmə". Biz onu ailəliklə gördük və bizim ailə üçün İsmayıl çox dirilərdən daha canlı, çox yaxınlardan daha yaxın, daha məhrəm oldu.

Elə bil çiynimdən ağır bir yük götürüldü. Elə o vaxtdan İsmayılın əziz xatirəsinə bir yazı həsr etməyi özümə bir borc hesab edərək, Qadir Allahdan bu işdə mənə kömək etməsini, arxa durmasını dilədim. Arada bəzi təsadüfi olaraq mövzu ilə bağlı ağlıma gələn fikirlər, ifadələr yazıya alınıb. Lakin indən belə həmin fikirləri də bura köçürməklə, onların sayını xeyli artırmaq lazım gələcək. Və nəhayət müəyyən miqdarda "məndaxili" və "mənxarici" enerji ehtiyatı topladıqdan sonra **kiçik bir qığılcım** bəs edəcək ki, boşalma (elektrik) hadisəsi baş versin və aşıqlar demişkən, sinəmizin sözü beyin-ürək süzgəcindən keçirilib vərəqlərə tökülsün.

... Lenin haqqında uşaq hekayələri ilə məşhur olan Aleksandr Kononov`un Parisdə hansısa beynəlxalq sərgidə baş verən bir hadisə haqqında qələmə aldığı və mənim də uşaqlıqda oxuduğum bir hekayə yadıma düşdü, İsmayıl haqqında düşünərkən.

"Sərginin SSRİ pavilyonuna qızının əlindən tutmuş bir kor fransız qoca gəldi və qızı onu Leninin pavilyonun mərkəzində qoyulmuş büstünün yanına apardıqdan sonra, əlini bir qədər büstün sifətində gəzdirdikdən sonra həyəcanla, "Mən onu gördüm, mən Lenini gördüm!" deyə səsləndi. Eyni vaxtda onun göz çuxurlarından isti göz yaşları süzülməyə başladı".

İndi mənə elə gəlir ki, İsmayıl barədə eşitdiklərimin, oxuduqlarımın və onun öz kitabı ilə tanışlığımın onun haqqında mənə verdiyi bilgini, o kor fransızın barmaqlarının yardımı ilə Lenin haqqında aldığı bilgi ilə müqayisə etmək olar. Süzülən isti göz yaşları da daxil olmaqla.

...Uzun müddət BDU-nun fundamental kitabxanasında işləyən və aspirantura vaxtı yataqxanada mənim otaq yoldaşım, Cəbrayıl rayonunun Daş Veysəlli kəndindən olan Arif Əliyev mənə rus dilində bir kitab bağışlamışdı. Latın Amerikası şairlərinin şeirlərindən tərtib olunmuş bir almanax idi. Orada Manuel Qutiyerrez Nahera adlı meksikalı bir şairin "O zaman ki..." adlı şeiri çox xoşuma gəldiyindən onu Azərbaycan dilinə sərbəst tərcümə etdim. O şeir dəniz və ölümlə, başqa sözlə bəxtsiz, talesiz İsmayılın həyatı ilə bağlı olduğundan onu burada vermək istəyirəm.

**O ZAMAN Kİ...**

*Mən mavi dənizin nəhayətsiz ənginliklərində,*
*qürub çağının qızılı şəfəqləri altında ölmək istərdim.*
*O zaman ki, can vermə yuxuya, ruh isə qanadlı quşa bənzəyir.*
*Qoy ancaq mavi səma ölüm yatağında mənim həmdəmim olsun.*
*Mən dostların hönkürtülərini yox, qaynayıb köpüklənən*
*ləpədöyənin gurultularını eşitmək istərdim.*
*Günəş – o gündüz çırağı yaşıl dalğalar qoynundan*
*öz qızıl saplı torunu yığışdırır...*

*Mən ağ qanadlı dalğalarda ərimək,*
*Günəş şüaları kimi ölmək istərdim.*
*Qəlbimdə heç bir təəssüf və qəzəb hissi olmadan*
*mən öz göz qapaqlarımı yummaq istərdim.*
*İstərdim ki, həyat məni əbədi olaraq tərk edərkən*
*"Mən əbədi olaraq daim səninəm..." deyə pıçıldayaydı!*

*Bakı,30.10.1975*

...Belə rəvayət edirlər ki, Makedoniyalı Böyük İsgəndər ölən zaman anasından xahiş edir ki, o, dəfn mərasimi bitənə qədər ağlamasın. Dəfndən sonra qəbiristanlığa gəlib, "İsgəndər!" deyə, oğlunu çağırsın, sonra istəsə ağlayar. Qadın hər şeyi oğlu deyən kimi edir və qəbiristanlığa gedib "İsgəndər! Oğlum!" deyə yanıqlı haray çəkəndə, yüz yerdən "Burdayam, Ana!" deyə, hay gəlir onun harayına. Qadın anlayır ki, çox İsgəndərlər gəlib keçmiş bu dünyadan və çox analar gözü yaşlı qalmış, ancaq səbr etmişlər.

Bizim İsmayıl da tək deyil əlbəttə. Onun haqqında düşünəndə həyatım boyu rast gəldiyim İsmayıllar səf çəkib düzülürlər gözümün önündə. Bir dəfə Türkiyədə, Kocaeli Universitetində bir yerdə işlədiyim və xətrini çox istədiyim Azər Qurban oğlu Məmmədov haqqında şeir yazası olanda, belə başlamışdım: "Azərlər ordusu səf-səf düzüldü, Könlüm eyvanına işıq süzüldü!"

İsmayıl deyəndə, birinci olaraq Həzrəti İbrahimin oğlu İsmayıl (peyğəmbər) yada düşür. 90 yaşlı İbrahimə Allahdan onu nanə yarpağı kimi əsməyə məcbur edən, "Oğlun İsmayılı mənim yolumda qurban kəs!" kimi qorxunc vəhy gələndə, onun tərəddüdlərinə son qoyan elə İsmayıl özü olmuş, atasına "Ata, əmrə uy, inşallah məni səbredənlərdən görərsən" demiş. Və bilavasitə İsmayılın sayəsində onların hər ikisi, ata-bala olaraq adamı qarsıb-qovuran bu imtahandan alnıaçıq, üzüağ çıxmışlar.

İkinci ağlıma gələn Şah İsmayıl Xətaidir və taleyin cilvəsinə bax ki, 1983-cü il sentyabrın 28-də mən müdafiə etdikdən sonra, artıq əbədi itirmiş olduğumuz İsmayılın kiçik qardaşı (onlar iki qardaş idilər) Azər mənə Xətainin iki cildliyini hədiyyə edərkən, onun I cildinə "Böyük hörmət bəslədiyim, ideal sandığım İsmixan müəllim, qədimdən müqəddəs sayılan ədədlərin sırasına "28" də daxil oldu, mübarəkdir! 28.IX.83" sözlərini əlavə etmişdi. Etiraf etməliyəm ki, o zaman mən göz-könül oxşayan bu səmimi sözlərin sehrinə qapılaraq, kitabların müəllifi İsmayıl Xətai ilə Azərin itirmiş olduğumuz böyük qardaşı İsmayıl Hacıyev arasındakı bağı, əlaqəni görməmişəm. Bunu görmək mənə yalnız indi, 40 il sonra nəsib oldu.

Əlbəttə, kifayət qədər uzun sürmüş həyatımda çox ismayıllarla qarşılaşmışam. Kəmərlidən dayım oğlu İsmayıl, kəndim Poyludan xətrimi çox istəyən Pəhləvan İsmayıl (axı mən də pəhləvanam, düzdür yüngül çəkili), Poylu məktəbindən şagird yoldaşlarım Rüstəmov və Abdullayev İsmayıllar və sair və ilaxır. Amma mən istəyirəm bu yerdə müxtəlif İsmayıllar barədə söhbətə son verib, yeri getməmişkən Azər haqqında söhbətə başlayım. Çünkü, əslində, bu yazının yazılma səbəbləri sıralansa, onların Azər ilə başlayıb Azər ilə bitdiyini görərik...

Mənim Hacıyevlər ailəsi ilə tanışlığım 1980-1981-ci tədris ilinin başında BDU-nun fizika fakültəsində Azərə dərs verməyim və bir tələbə kimi onu çox bəyənməyimlə başlayıb. Amma o zaman Azərin Tofiq müəllimin oğlu olduğundan xəbərim yoxdu. Mən Tofiq müəllimlə ağlımda qaldığı qədərincə, yalnız Azər II kursda oxuyarkən, artıq onunla bir-birimizi bəyəndikdən sonra tanış olmuşuq. O zaman Tofiq müəllim belə bir söz işlətdi ki, müəllim, sən Azərə dərs verəndən bəri, demək olar ki, bizim ailənin bir üzvü olmuş kimisiniz. Sözləri təhrif edə bilərəm, amma fikrin mahiyyəti tam da yazdığım kimi idi.

Azərlə bağlı fikirləşəndə çox gözəl şeylər yada düşür əlbəttə, amma bunların başında ən çox bəyəndiyim bir hadisə gəlir ki, bu hadisə Azərin yüksək zəkasının, fitri istedadının varlığından xəbər gətirən bir hadisə idi. Kompleks dəyişənli funksiyalar nəzəriyyəsindən mühazirə dərsində tərs Laplas çevirməsi ilə bağlı evə verdiyim tapşırığı, patokda heç kim etməmiş və çətin idi, həll edə bilmədik – deyə, özlərinə haqq qazandırırdılar. Azər də bu uşaqların içindəydi və mən sadəcə onu danladım bu hadisəyə görə ("uman yerdən küsərlər" və ya "sənə güvəndiyim dağlar, sənə də qar yağarmış" havasında). Amma mən tənəffüsə çıxanda, o mənə yaxınlaşıb ev tapşırığının doğru-

düzgün həllini təqdim etməklə onun haqqında yanılmadığımı bir daha sübut etdi.

Sonra Azər görkəmli fizikimiz Firudin Həşimzadənin rəhbərliyi altında dissertasiya da müdafiə etdi. Ancaq daha sonra 80-ci illərin sonunda hadisələrin çox qarışıq cərəyan etməsi, SSRİ-nin dağılması, Qarabağ ətrafında oynanan çirkin oyunlar, əslən Qarabağın Soltanlı kəndindən olan Azərdən yan ötə bilməzdi və ötmədi. O, iş adamı olaraq özü üçün daha aktiv həyat tərzi seçdi və bu yolda uğurlu nəticələrə imza atmış kimidir məncə (3 qız atası və nəvələr sahibidir həm də).

...Yenidən İsmayılla bağlı o kədərli və iztirablı günlərə dönsək, deməliyəm ki, o vaxt İsmayılı tanıyanların bəzi kiçik xatirə yazıları çıxdı və mənim bunlardan xəbərim oldu əlbəttə. Amma mənim bu mövzuda bu günə qədər rəsmi mətbuatda bir sətir yazım getmədi. Və bunun əsas səbəbi o idi ki, mənim nə İsmayıl, nə onun atası Tofiq müəllim, nə də sonradan sevimli tələbəm olacaq qardaşı Azərlə tanışlığım yox idi.

O vaxt oxuduğum yazılardan Ramiz Rövşənə məxsus yazıdakı iki cümlə qalıb yadımda. Yazırdı ki, İsmayılla hər cür çətin, hətta sürüşkən balıq kimi əldə tutulması çətin olan mövzuda söhbət etmək olurdu (hər intellekt sahibi ilə alınmır elə söhbətlər, alınsa da nəticəsi olmur). İkinci cümləsi də təskinlik xarakteri daşıyırdı və "İnsan həyatı yarımçıq ola bilməz, çünki o, insan varlığının doğuşla başlayıb, ölümlə sonuclanan bir hissəsidir yalnızca". Ramizin sözünün qüvvəti olaraq gənc yaşlarında dünya həyatına vida edən üç böyük riyaziyyatçının adını çəkmək istəyirəm. Bunlar 21 yaşında dueldə öldürülən fransız Evarist Qalua (1811-1832), 27 yaşında vərəmdən dünyasını dəyişən norveçli Nils Hendrik Abel (1802-11829) və İngiltərənin Kembric Universitetindən doğma Mədrəs Universitetinə professor olaraq dəvət olunan və vəzifəsinə başlaya bilmədən, 33 yaşında xəstəlikdən vəfat edən hindistanlı Sirinivaza Aiyenqar Ramanucan (1887-1920)-dırlar.

Buraya Eynşteynin "Xüsusi nisbilik nəzəriyyəsi"nə həsr olunmuş bir kitabın "Ekizlər paradoksu" bölümündən bir cümlə də əlavə etmək istəyirəm. Kitabın adı "Bu necə baş verdi?", müəllifi isə Cekob Şvarts. Cümlə isə təxminən belə idi: "Ekiz A və B qardaşlarının hər birinə üzərində gələcək təcrübə və yaşantıların muncuq kimi düzülmüş olduğu eyni uzunluqlu ömür ipi verilmişdi. Ancaq bu muncuqları hansı sürətlə nəzərdən keçirmək məsələsi qardaşların özündən asılı idi".

Leopold İnfeld`in "Evarist Qalua" kitabında epiqraf kimi keçən bir cümləni də bura əlavə etməkdən özümü saxlaya bilmədim. "Allahın sevdikləri tez ölürlər". Əlbəttə, bu heç də "Gec ölənlər Allahın sevmədikləridir" kimi absurd nəticəyə yol açmır və açmaz inşallah.

Hadisələrin sonrakı axarı məni Tofiq müəllim ailəsi ilə daha da yaxınlaşdırmış və bu işdə təşəbbüs tamamən Tofiq müəllimin əlində olmuşdu. Bunun kökünü isə, məncə, onun dürüstlüyündə, ləkə götürməz səmimiyyətində və lazım gələndə dost yolunda əziyyətə qatlanmaqdan geri addım atmamasında axtarmaq lazımdır. 1989-cu ildə mənə "Qarabağı ermənilərə verin, müharibə dayansın" deyə, müraciət edən 25 illik əsgərlik dostum İvara yazdığım cavab hamının ürəyincə olub rotaprint üsulu ilə yayılanda, o kitab haqqında ən ətraflı, ən səmimi və ilk olan rəy də Tofiq müəllimdən gəldi.

Sonra bizim yollarımız ayrıldı. 1993-ün 19 mayında, mənim 2012-nin 20 mayına qədər 19 il sürəcək olan "Türkiyə əsgərliyim" başladı (məni III kursdan əsgər apardılar və Türkiyəyə gedənə qədər yuxularımda yenə əsgərliyə çağırış vərəqələri alırdım. Türkiyəyə gedəndən bu çağırışların arası kəsildi). Amma Vətənə hər dönüşümdə onu mütləq ziyarət edir və onunla hər şeylə yanaşı, "Qarabağ ağrılarımızı" da müzakirə edirdik. Daha sonra bu mövzuda 2002-ci ildə çap olunan "Письмо другу-Постскриптум" və 2011-ci ildə latın qrafikası ilə çap olunmuş "Erməni dosyası" kitablarımı da Tofiq müəllimə hədiyyə etdim. Yeri getməmişkən bu kitabda əvvəlki kitaba yazılan rəylərdən ikisinə – Aslan Aslanov və Tofiq müəllimin rəylərinə də yer verilmişdi.

2012-ci ildə Türkiyədən köklü dönüşümdən sonra da əlaqələrimiz davam etdi Tofiq müəllimlə. Son zamanlar o, eyni zamanda bir neçə məsul vəzifələrdə işləmişdi. Bunlar BDU-nun filologiya fakültəsində kafedra müdiri, Prezident yanında Dil komissiyasının üzvü, AMEA-nın akademiki və dilçilik institutunun rəhbəri kimi şərəfli, eyni zamanda ağır vəzifələr idi, müəllimin sağlamlığı isə qibtə ediləcək səviyyədə deyildi. Tofiq müəllim bir ara, müstəqilliyimizin ilk dövrlərində, hətta, Azərbaycanın maarif naziri vəzifəsini də daşımışdı. 2015-ci ilin 27 noyabrında bizim üçün çox istənən və əziz olan Tofiq müəllimli günlərimiz bitmiş oldu...

Lakin bizim Azərlə olan münasibətlərimiz davam etdi və hətta bir qədər də irəlilədi. Bəlkə də Azər əvvəlki münasibətləri saxlamaq naminə əlaqənin bir qismini də atasının adına yaradırdı. Mən də Azəri həmişə Atası və böyük qardaşı İsmayılla birgə anmışam. Və mən Türkiyədən dönüb

BDU-da yenidən işə başlayandan sonra, 40 illik məslək həyatımda gözümü oxşayan və könlümü doyduran 3 tələbəmə qonaqlıq vermək istəyəndə, onlardan yaşca kiçik olanın Azər olması təsadüfi deyildi. Daha sonra, mən artıq 2015-in yanvar ayından BDU-dan ayrılmağıma baxmayaraq, Tofiq müəllimin 80 illik yubileyinə ailədən qatılan tək müəllim oldum və bundan olduqca xoşhal olub, qürur duydum.

Elə həmin il Azər mənə Tofiq müəllimin "Seçilmiş əsərləri"nin I cildinin 500 səhifəlik İ hissəsini bağışladı və mən bu kitabı, vaxtilə müəllim mənim 50 səhifəlik kitabımı oxuduğu kimi, "birnəfəsə" oxudum. O zaman İsmayıl haqqında keçmiş arzularım yeni "pöhrə" verdi və Ata və Oğul haqqında bir yazı yazmağa həvəsləndim. Azərin 2018-də mənə hədiyyə etdiyi "Cəbrayıl şivəsi" kitabı və onu oxuyarkən aldığım zövq bu istəyi bir az da gücləndirdi. Lakin bu ərəfədə məni tamamən məşğul edən beynəlxalq məktub əlaqələrim, ailəmizin Latviyaya dəvət olunması və nəhayət 2020-2021 pandemiyası artıq atəşi zəifləmiş olan istəyimi tamamən söndürmüş oldu.

...Deyəsən artıq bu "həzin hekayət"in sonuna gəlmişik. Yadınızdadırsa, mən yuxarıda demişdim, əgər kifayət qədər enerji toplaya bilsəm, **kiçik bir qığılcım** bəs edəcək ki, elektrikdə (şimşəkdə) olan kimi boşalma hadisəsi baş versin. İndi biz o qığılcımın həndəvərindəyik hardasa. Burada hekayənin "əşxas" qisminə bir şəxs də daxil olmalıdır ki, qığılcım əhvalatı vüqu bulsun və bu şəxs də olacaq mənim 55 illik tələbəlik dostum, Xəzər Universitetinin qurucu rektoru olmuş Hamlet İsaxanlı! Hamlet müəllimin belə bir xasiyyəti var ki, harada yeni bir kitab gördü, mütləq bir "alıcı quş" sürəti ilə onunla maraqlanır və çox qısa bir müddətdə, artıq o kitab haqqında əsas bilgiləri əldə edə bilir. 2022-də bizim evdə qonaq olarkən, Tofiq müəllimin kitabxana rəfimdə sərgilənən və yuxarıda adı keçən iki kitabını görüncə, onları sürətlə incələdi və "bu kitablardan özümə də, universitetimizə də almaq istərdim" dedi.

Arxasınca hadisələr belə cərəyan etdi. Mən Azərlə bu barədə danışandan sonra telefonu Hamlet müəllimə verdim. Azər onda olan kitabların hər birindən bir nüsxə olmaqla Xəzər Universitetinə sevə-sevə bağışlamağa hazır olduğunu dilə gətirincə, Hamlet, "biz də "Xəzər Xəbər" jurnalımızda Tofiq müəllim və onun kitabı haqqında bir yazı verərik və bu yazını bəlkə elə İsmixan müəllim özü yazdı" - dedi. Arzusunda olduğum "**Qığılcım**" Hamlet müəllimin bu son sözü oldu. Bu "qığılcımdan törəyən alovun" işığında Tofiq müəllimin məndə olan "Şeirimiz, nəsrimiz, ədəbi dilimiz" adlı 360 səhifəlik kitabını da axtarıb tapdım. Bu kitab 1990-cı ilin o təlatümlü günlərinə tuş gəldiyindən kitabxanamda o dövr (1988-1993) alınmış digər kitablar kimi oxunmamış qalmışdı.

...Azər sözünü tutdu, mən də bu kiçik yazım ilə elə bil ki, Hamletin də sözünü tutmasını təmin etmiş oldum. Yazının sonunda Hamlet müəllimə və Azərə bu yazının ərsəyə gəlməsindəki iştiraklarına görə təşəkkür edir və sözümü unudulmaz İsmayılın özü və kitabı haqqında bilgi ilə yekunlaşdırmaq istəyirəm.

Facıə baş verən zaman İsmayıl Leninqrad Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölümündə, III kursda oxuyurdu və hər cəhətdən böyük ümidlər verən bir gənc idi. Onun "Yadda qalan günlərim" adlı 212 səhifəlik kitabı ölümündən 3 il sonra 1983 ilində "Gənclik" nəşriyyatında işıq üzü görüb. Kitabın "Bir ömür nədir ki?.." adlı ön sözünün müəllifi və redaktoru Xalq yazıçımız Elçindir və son təşəkkürümü də buradan ona ünvanlayıram. Kitabdakı hekayələr "Uşaqlıq yaddaşımdan", "Orta məktəb illəri" və "Leninqrad səhifələri" adlı üç bölümdə toplanmışdır.

Son olaraq İsmayıl üçün Tanrıdan rəhmət diləyir, məkanı Cənnət, ruhu şad olsun deyir və bizə bu cür özü kimi təmiz, məsum və ağıllı bir kitab qoyub getdiyi üçün ona da təşəkkür edirəm (gec də olsa)...

**İsmixan Yusubov**
*Bakı, 19.01.2023*

## BAYTARLIQ TƏBABƏTİ ÜZRƏ KOORDİNATOR BEYNƏLXALQ KONFRANSDA

## VETERINARY MEDICINE COORDINATOR AT INTERNATIONAL CONFERENCE

Yanvarın 17-18-də Xəzər Universiteti Həyat elmləri departamentinin Baytarlıq təbabəti üzrə koordinatoru b.ü.f.d. Ayaz Məmmədov Ukrayna Səhiyyə və Elm Nazirliyi, Ukrayna Milli Həyat və Ətraf Mühit Elmləri Universiteti Heyvandarlıq və su bioresursları fakültəsi və İsveç Kənd Təsərrüfatı Elmləri Universitetinin molekulyar elmlər şöbəsinin təşkil etdiyi "Davamlı heyvandarlıq və heyvanların rifahı" adlı onlayn beynəlxaq konfransda iştirak etdi.

İkigünlük konfransda A.Məmmədov "Fermerlərin və istehlakçıların heyvanların rifahına münasibəti: Azərbaycan təcrübəsi" mövzusunda hazırladığı məruzə ilə çıxış etdi. "Dayanıqlı İstehsal və İstehlak üçün Xoşbəxt Heyvanlar (HAnimSPAC)" layihəsi çərçivəsində Həyat elmləri departamenti tərəfindən fermerlərin və istehlakçıların heyvanların rifahına münasibəti ilə bağlı aparılmış sorğunun əsas məqamları konfrans iştirakçılarının diqqətinə çatdırdı.

Qeyd edək ki, beynəlxalq tədbirdə Ukrayna, İsveç, Polşa, Çexiya, Estoniya, Litva, Danimarka, Sloveniya, Şri-Lanka, Moldova, Qazaxıstan, Azərbaycan, Efiopiya və ABŞ-ın aparıcı alimləri, tədqiqatçıları, ali təhsil müəssisələrinin müəllimləri və doktorantları iştirak edib.

On January 17-18, Ayaz Mammadov, Doctor of Philosophy in Biology, Coordinator of Veterinary Medicine of Khazar University Life Sciences Department, participated at the international conference "Sustainable animal husbandry and animal welfare" organized by the Ministry of Health and Science of Ukraine, National University of Life and Environmental Sciences of Ukraine Faculty of Animal Husbandry and Water Bioresources, and Department of Molecular Sciences, Swedish University of Agricultural Sciences.

At the two-day conference, A. Mammadov made a speech on the topic "Attitude of farmers and consumers towards animal welfare: Azerbaijan's experience". The main points of the survey conducted by the Department of Life Sciences within the framework of the "Happy Animals for Sustainable Production and Consumption (HAnimSPAC)" project regarding the attitude of farmers and consumers to animal welfare were brought to the attention of the conference participants.

Note that leading scientists, researchers, faculty members and doctoral students of higher education institutions from Ukraine, Sweden, Poland, the Czech Republic, Estonia, Lithuania, Denmark, Slovenia, Sri Lanka, Moldova, Kazakhstan, Azerbaijan, Ethiopia and the USA took part in the international event.

## ERASMUS+ ECAR LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ VİRTUAL GÖRÜŞ

## VIRTUAL MEETING WITHIN THE ERASMUS+ ECAR PROJECT

Co-funded by the Erasmus+ Programme of the European Union

Yanvarın 23-də Erasmus+ ECAR layihəsi çərçivəsində virtual görüş keçirildi. Xəzər Universitetinin tərəfdaşı və Bakı Biznes Universitetinin koordinatoru olduğu bu layihənin görüşündə Azərbaycan və Avropa universitetlərindən olan tərəfdaşlar da daxil olmaqla 20 nəfərdən çox nümayəndə iştirak edirdi.

Tədbir nümayəndələrin özlərini təqdim etməsi ilə başladı. Sonra Azərbaycandan olan tərəfdaş universitetlərin rektorları, prorektorları və Azərbaycan Elm və Təhsil Nazirliyinin nümayəndələri ilə Erasmus+ ECAR layihəsi çərçivəsində Elmi işlər üzrə komitənin sədrinin seçkisi keçirildi.

Görüşdə Xəzər Universitetindən Karyera mərkəzinin rəhbəri Səbinə Allahverənova iştirak etdi.

On January 23, 2023, a virtual meeting was held within the Erasmus + ECAR project. More than 20 representatives, including partners from Azerbaijani and European universities, participated in the meeting of this project, in which Khazar University is a partner and Baku Business University is a coordinator.

The event started with the representatives introducing themselves. Then, the election of the chairman of the Scientific Affairs Committee was held within the framework of the Erasmus+ ECAR project with rectors, vice-rectors of partner universities from Azerbaijan and representatives of the Ministry of Science and Education of Azerbaijan.

Sabina Allahveranova, head of the Career Center from Khazar University, took part in the meeting.



*Fatimə Abdullayeva, Turanə Kərimova, Araz Paşayev, İradə Xəlilova,*
*Fatima Abdullayeva, Turana Kerimova, Araz Pashayev, Irade Khalilova*

## XƏZƏR UNİVERSİTETİ İLƏ TƏHSİL TƏLƏBƏ KREDİTİ FONDU ARASINDA MEMORANDUM İMZALANMIŞDIR

Yanvarın 24-də Xəzər Universiteti və Təhsil Tələbə Krediti Fondu arasında memorandum imzalanmışdır.

Tədbirdə Xəzər Universitetinin rektoru İradə Xəlilova, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, Qəbul şöbəsinin müdiri Lamiyə Xəlilova, Təhsil Tələbə Krediti Fondunun İdarə Heyətinin sədri Araz Paşayev, Təhsil müəssisələri ilə İş şöbəsinin müdiri Turanə Kərimova, Təhsil müəssisələri ilə İş şöbəsinin aparıcı mütəxəssisi Ağca Məmmədova, İnsan resursları üzrə mütəxəssis Fatimə Abdullayeva iştirak etmişlər.

Fondun nümayəndələri tələbələrə təklif edilən kreditlər, müraciət qaydaları, ödəmə şərtləri haqqında məlumat vermişlər.

Görüşdə Xəzər Universiteti və Təhsil Tələbə Krediti Fondu arasında mümkün əməkdaşlıqlar müzakirə olunmuşdur.

## A MEMORANDUM SIGNED BETWEEN KHAZAR UNIVERSITY AND EDUCATION STUDENT LOAN FUND

On January 24, 2023, a memorandum was signed between Khazar University and the Education Student Loan Fund.

Rector of Khazar University Irada Khalilova, Vice-Rector for Academic Affairs Mahammad Nuriyev, Head of Admission Department Lamiya Khalilova participated in the event. Chairman of the Board of Education Student Loan Fund Araz Pashayev, Head of the Department of Work with Educational Institutions Turane Karimova, Leading Specialist of the Department of Work with Educational Institutions Aghca Mammadova, Human Resources Specialist Fatima Abdullayeva.



Representatives of the ESL fund provided information about the loans offered by the fund to students, application rules, and payment terms.

Possible cooperation between Khazar University and Education Student Loan Fund was discussed at the meeting.



# SEEING A PERSPECTIVE: ESTONIA, THE BALTIC WAY, AND MAHATMA GANDHI'S LEGACY

Arguably, the context of a world-wide commemoration of an important anniversary gives a needed perspective. On 30 January 1948 or 75 years ago, a militant Hindu nationalist assassinated Mahatma Gandhi. There are many meaningful words and expressions, which can immediately appear to be directly associated with the process – **'together'**, 'unity', 'future in the past', 'international', 'on the same page', 'common understanding', and many others. Usually, when the anniversary's connotation is about being truly 'world-wide', there is also a unique philosophical mixture of multiple tragedies and triumphs to be easily detected in each and every nation's historic memory, and this factor gives a special significance to the moment that unifies many.

During the initial part of a new year, the Republic of Estonia has plenty to commemorate. To a surprise of those who are not familiar with the field of international relations (or, for that matter, social anthropology), the Northern European country of 1.3 million people has already grown up in an imaginary league of national endurance. Having celebrated its **centennial** in February 2018, Estonia is now fully entitled to use big numbers to 'craft' a decent history-bound strategic narrative for itself. For example, apart from the independence-related big anniversary, the nation of the eastern coast of the Baltic Sea proudly organised the XXVII Song Festival (in the Estonian language – Laulupidu) in July 2019 to maintain a 150-year tradition. Back in June 1869, the initial event was organised for 51 male choirs and brass bands with 845 singers and musicians to be performing in the south-eastern Estonian city of Tartu[1] (then, the locality was an integral part of the Russian Empire's Governorate of Livonia). These days, the Song Festival Grounds or Lauluväljak, can accommodate up to 100,000 people[2] , so it could become a temporary 'residence' for about 8% of the country's population. This is when **'together'** receives its true meaning and, objectively, one of the most beautiful appearances – the nation sings in one voice, celebrating its language, national development, historic memory, and, ultimately by now, existence as a sovereign state.

In fact, the singing dimension of the Estonian identity narrative is strongly linked with the fact of re-gaining independence from the dramatically collapsing Soviet Union – from about 1988 until 1991, Estonia (**together** with Latvia and Lithuania) successfully 'performed' the 'Singing Revolution', a myriad of illustrious politico-cultural happenings, which eventually led to the three Baltic counties' comeback to the international system after their independence had been re-gained. As a direct consequence of the Treaty of Non-aggression between Germany and the Union of Soviet Socialist Republics as well as the document-linked secret protocol (all remembered by history as the so-called 'Molotov–Ribbentrop Pact'), signed on **23 August 1939**, Lithuania, Latvia, and Estonia were forcefully 'incorporated' into the Soviet Union by 3, 5 and 6 August 1940 correspondingly.

The brutal occupation was associated with and/or led to executions and deportations of tens

[1] *'Song Celebration' in Eesti Laulu- ja Tantsupeo SA. Available from [https://2019.laulupidu.ee/en/song-celebration/].*

[2] *Tallinna Lauluväljak. Available from [https://lauluvaljak.ee/et].*

of thousands, nationalisation of economies, supressing personal and collective freedoms, and destruction of societal interlinkages in the three Baltic states. For example, in May-June 1941, Moscow issued an authorisation to commence mass deportations of people from some of the lands controlled by the Soviet Union by then – predominantly, from Belarus, Estonia, Latvia, Lithuania, Karelia, Moldova, and Ukraine. In Estonia, the deportation was carried out on 13-14 June 1941, during the night-time, initially allowing two hours for a family to pack their household items up to 100 kg per person, but even these limits were not observed, and many people were getting sent to Siberia in summer clothing and almost without any substantial household items taken with them to the unknown lands[3]. The aforementioned Soviet-German Pact's secret protocol, which was hidden by the Kremlin in its top-secret archives, became an invisible symbol of atrocious injustice for the Baltic states, when the world's major powers decided to play a 'game' of geo-strategy at the expense of their much smaller neighbours' independence. Intriguingly, history had the last laugh – both the Soviet Union and the Third Reich disappeared from the political map, but Estonia, Latvia, and Lithuania continue solidifying their statehoods as sovereign states.

However, it would have never occurred, if millions of citizens had not 'assisted' the former USSR to



**Photo:** *Heidi Maasikmets/ERR*

keep proceeding into a politically pre-determined self-destructive mode. The finale was historically spectacular, and, in 1991, the Soviet Union faded away. In the direct context of Mahatma's legacy, there was one particular event, which made a crucial difference for Estonia and the other two of the Baltics to regain their independence, while also pushing the totalitarian Soviet empire to its enervation. On **23 August 1989**, equally 50 years after the signing of the 'Molotov–Ribbentrop Pact', the Gandhian philosophy inspired many inhabitants of Estonia, Latvia, and Lithuania to create something extraordinary, an unbroken 'human chain' of about 2 million people that linked Tallinn, Riga, and Vilnius and spanned over 675 kilometres[4]. The Baltic Way was created! Was it the longest 'human chain' in history or was it not, it was definitely a powerful as well as peaceful protest of the three countries' civil societies, demanding the Soviet authorities to publicly acknowledge and

[3] *'The June deportation, 1941' in Estonica, Encyclopedia about Estonia. Available from [http://www.estonica.org/en/The_June_deportation,_1941/#].*

[4] *Helen Wright and Silver Tambur, 'Estonia commemorates 30 years since the Baltic Way – the longest unbroken human chain in history' in Estonian World, 23 August 2019. Available from [https://estonianworld.com/life/estonia-commemorates-30-years-since-the-baltic-way-the-longest-unbroken-human-chain-in-history/].*

denounce the document that, in the particular case of the Baltic states, led to the annexation of sovereign Estonia, Latvia, and Lithuania by the Soviet Union.

Certainly, in 1980s, the Soviet regime was much softer than it was in the dark era of Stalinism. With Mikhail Gorbachev and some his ground-breaking political initiatives like perestroika or glasnost being under way, the situation was not to be described as grim for/by an outsider. But for those who then lived in the USSR, regardless of their titular republic, it was still the same totalitarian imperial entity, which was very reluctant to openly answer a high number of important historical questions. For Estonia, the 'Molotov–Ribbentrop Pact' was not only associated with the fact of annexation – the secretly concluded 'deal' also ruthlessly interrupted the country's economic development and destroyed its society-building process.

The dark anniversary was fast approaching, and the people of the Baltics knew that any kind of an




**Photo:** *Ülo Josing/ERR*

armed uprising would not be an option – militarily, the Kremlin was still very strong, and a revolt would have been brutally supressed, significantly delaying a perspective to regain independence. Therefore, a peaceful, respectful, and non-violent protest was needed to deliver a strong message to the Soviet regime. On the day, many busses took people all the way along the line, forming the 'chain'[5]– the event was well documented, and many citizens in Estonia, Latvia, and Lithuania treasure those pictures taken then. Standing in the line across the three countries, people were singing songs and waving national flag, which were banned by the Kremlin since the time of occupation. The finale was memorable – at 7 p.m., everyone held hands or linked arms for 15 minutes[6] . The Gandhian meaning of '**together**' received its classic Baltic dimension!

Within seven months since the Baltic Way, on 11 March 1990, the antient Lithuanian state was to declare the restoration of its independence, intending to leave the Soviet Union. Latvia made the same announcement on 4 May 1990, and Estonia completed the process with regaining its full independence on 20 August 1991 (having previously held a referendum in March 1991). Thinking about the Baltic Way's upcoming 34th Anniversary in 2023, it could be argued that it was one of the

[5] *'Thirty years since Baltic Way joined Estonia, Latvia, Lithuania' in ERR, 23 August 2019. Available from [https://news.err.ee/973049/thirty-years-since-baltic-way-joined-estonia-latvia-lithuania].*

[6] *'Thirty years since Baltic Way joined Estonia, Latvia, Lithuania'.*

most memorable mass protests in the world. For the Republic of Estonia, it became an integral part of a revolutionary movement, which was carried out without a single drop of blood. In a metaphorical way, as noted by Keiu Telve, "the Baltic Way made some of the first cracks in the Berlin Wall"[7]. This kind of interconnectedness makes the Gandhian philosophy's universal significance simply unmatched. "Elagu Eesti!" or "Long live Estonia!" is a patriotic greeting that is often heard in the country on an Independence Day, in February. "Elagu Mahatma Gandhi!" was written on a placard (in fact, it was a piece of plywood), which was held by two Estonian ladies who were about to join the Baltic Way. It is needless to add anything else.




**Photo:** *Raivo Tiikmaa/ERR*

**Vlad Alex Vernygora,**
*Senior Lecturer in Political Science and Philosophy, School of Humanities,Education and Social Sciences, Khazar University (Azerbaijan)*

**Heili Sõrmus,**
*Senior Marketing Specialist, School of Business and Governance, Tallinn University of Technology (Estonia)*

[7] *Keiu Telve in 'Thirty years since Baltic Way joined Estonia, Latvia, Lithuania'.*

# TƏBİƏT ELMLƏRİ VƏ MÜHƏNDİSLİK FAKÜLTƏSİNİN DEKANI GAZİ UNİVERSİTETİNDƏ

# DEAN OF THE SCHOOL OF SCIENCE AND ENGINEERING AT GAZI UNIVERSITY



*Bilgisayar mühəndisliyi bölümünün müdiri Ayhan Erdem, Süleyman Tekeli, Fəxrəndə Əfəndiyeva*

*Head of the Computer Engineering Department Ayhan Erdem, Süleyman Tekeli, Fakhranda Afandiyeva*

Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva Erasmus+ İşçi Heyətinin Mobilliyi (KA107) layihəsi çərçivəsində 2022-ci il dekabrın 19-23-də Türkiyənin Ankara şəhərində Gazi Universitetində səfərdə olub.

Məqalədə müəlliflər elektronların hər hansı aşağı ölçülü birləşmələrdə paylanması üçün analitik asılılığın tapılmasının həmin birləşmənin həm daha dərin fundamental tədqiqi, həm də geniş tətbiqi baxımından çox böyük əhəmiyyət kəsb etməsini nəzərə alaraq, iki ölçüdə kvant konfaynmentinə tabe olan, bir ölçüdə isə həcmiliyini qoruyan Rashba və Dresselhaus spin-orbit qarşılıqlı təsirinə malik aşağı ölçülü sistem olan nizamsız kvant naqili üçün lokal səviyyələrdə elektron sıxlığı paylanmasının analitik ifadəsini tapmışlar. Bu analitik ifadəni tapmaq üçün ikiölçülü konfaynmentə malik fiziki sistemlər üçün genişləndirilmiş Berezinski harmonik approksimasiyası tətbiq edilmişdir.

Məqaləyə keçid:

The article co- authored by Farida Tatardar, head of the Physics and Electronics Department, Khazar University, entitled "Berezinskii diagrammatic method for one-dimensional irregular wire with spin-orbit interaction" was published Physica E:Low-Dimensional Systems & Nanostructures (Elsevier Q2 Impact Score 3.25; volume 146, january 2023).

The article studies the obtaining analytical dependency for the distribution of the electrons on any low-dimensional compounds is of great interest to both deeper fundamental research and a wide range of application points of view. Taking this interest into account, we obtained an analytical expression of the electron density distribution of the local states for the disordered quantum wires with the Rashba and Dresselhaus spin-orbit interaction, which are confined in two dimensions but keep their volumes in the third dimension. For the computation of such a distribution, we have used extended Berezinski harmonic approximation for the physical systems under the two-dimensional confinement effect.

Link is provided below:

http://dx.doi.org/10.1016/j.physe.2022.115550

## "XƏZƏR"İN MÜƏLLİMİ TÜRKİYƏNİN NTV KANALINDA

## KHAZAR UNIVERSITY FACULTY MEMBER ON TÜRKIYE'S NTV CHANNEL

Tarix və arxeologiya departamentinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Bayram Quliyev Türkiyənin NTV kanalında yayımlanan "Əsrarəngiz Azərbaycan" proqramının Qarabağla bağlı bölümlərində qonaq qismində çıxış etmişdir. Həmin bölümlərin həm də tarixi məsləhətçisi olan B. Quliyev proqramda Şuşa, onun tarixi, mədəni abidələri, Xudafərin və Azıx mağarası haqqında türkiyəli tamaşaçılara məlumat vermişdir.

Xatırladaq ki, "Əsrarəngiz Azərbaycan" proqramı Azərbaycanın mədəni tarixi haqqındadır, Bakı və Qarabağ haqqında bölümlərdən ibarətdir.

Bayram Guliyev, the lecturer of the Department of History and Archeology, Doctor of Philosophy in History, appeared as a guest in the Karabakh-related episodes of the "Mysterious Azerbaijan" program broadcast on the Turkish NTV channel.

B.Guliyev, who is also the historical consultant of those episodes of the program, informed the Turkish audience about Shusha, its history, cultural monuments, Khudafarin and Azikh cave in the program.

Note that the "Mysterious Azerbaijan" program is about the cultural history of Azerbaijan and includes episodes about Baku and Karabakh.

## "ANADOLU" XƏBƏR AGENTLİYİ TELMAN NÜSRƏTOĞLU HAQQINDA YAZI DƏRC EDİB

## "ANADOLU" NEWS AGENCY PUBLISHED AN ARTICLE ABOUT TELMAN NUSRATOGHLU

Türkiyənin məşhur "Anadolu" xəbər agentliyi 2023-cü il yanvarın 17-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri, tarix üzrə fəlsəfə doktoru Telman Nüsrətoğlu haqqında yazı dərc edib. Yazıda Türkiyə Respublikasının 1992-ci ildə "Böyük Öğrenci Projesi" adlı layihə çərçivəsində Azərbaycandan Türkiyəyə göndərilən ilk tələbələr arasında yer alan T. Nüsrətoğlunun 2016-cı ildə İstanbul Universiteti Ədəbiyyat fakültəsinin Tarix bölümündə doktorluq elmi dərəcəsi aldığı vurğulanır.

Yazıda, həmçinin, alimin Türk İslam Araşdırma Mərkəzinin düşüncə qurumunun rəhbəri, Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri olduğu da qeyd edilmişdir.

Yazıda T. Nüsrətoğlu ilə müsahibəyə də yer ayrılmışdır. Alim Türkiyə ilə Azərbaycan arasında "Bir millət – iki dövlət" prinsipləri ilə yaranan qardaşlıq münasibətlərinin "Şuşa bəyannaməsi" ilə hərtərəfli şəkildə daha da inkişaf etməkdə olduğunu vurğulamışdır.

On January 17, 2023, Türkiye's famous "Anadolu" news agency published an article about Telman Nusratoghlu, head of the Department of History and Archeology of Khazar University, doctor of philosophy in history.In the article, it is emphasized that T. Nusratoghlu, who was among the first students sent from Azerbaijan to Türkiye in 1992 as part of the project called "Great Student Project" of the Republic of Türkiye, received a doctorate degree in 2016 in the History Department of the Faculty of Literature of Istanbul University.

The article also mentions that the scientist is the head of the think tank of the Turkish Islamic Research Center and the head of the History and Archeology Department of Khazar University.

The article also includes an interview with T. Nusratoglu. The scientist emphasized that the fraternal relations between Turkey and Azerbaijan based on the principles of "One Nation - Two States" are being comprehensively developed with the "Shusha Declaration".





*Fərid Xəlilzadə Farid Khalilzadeh*

## SEMİNAR: FƏRDİ MƏLUMATLARIN QORUNMASI

2022-ci il dekabrın 8-də Beynəlxalq əlaqələr şöbəsinin və Hüquq departamentinin birgə təşəbbüsü ilə "Fərdi məlumatların qorunması yolları" barədə seminar baş tutub.

Seminar Hüquq departamentinin müəllimi Fərid Xəlilzadə tərəfindən aparıldı. Seminarda əsas hədəf qrupu olaraq tələbələr ilə birbaşa fəaliyyətdə olan dekanlıq nümayəndələri, tələbə qəbul şöbəsi və kitabxana nümayəndələri iştirak etdi. Seminarın əsas məqsədi tələbələrin fərdi məlumatlarının məxfiliyi və təhlükəsizliyinin təminatı barədə məlumat xarakteri daşıyıb.

## SEMINAR ON WAYS TO PROTECT PERSONAL DATA

On December 8, 2022, a seminar on "Ways to protect personal data" was held as a result of the joint initiative of the International Relations Department and the Department of Law.

The seminar was conducted by Farid Khalilzadeh, the lecturer of the Department of Law. As the main target group, representatives of the dean's office, student admissions department and library representatives who work directly with students participated in the seminar. The main purpose of the seminar was to provide information on the privacy and security of students' personal data.

The seminar ended with answering questions from the audience.

## MAGİSTRLƏR DİSSERTASİYA MÜDAFİƏ ETDİLƏR

2022-ci il dekabrın 9-da Xəzər Universitetinin Psixologiya departamentinin magistr tələbələri Gülzar Quliyeva "Evlilik müddətindən asılı olaraq cütlüklər arasında şəxsiyyətlərarası konfliktlərin təzahür xüsusiyyətlərinin tədqiqi", Səməd Eyvazov "İnformasiya stresinin adaptasiya prosesinə təsirinin psixoloji məsələləri" və Cəmilə Məhərrəmova "Pandemiya şəraitində həkimlərdə psixi dayanıqlılıq ilə psixoloji stress səviyyəsi arasındakı əlaqənin psixoloji təhlili" mövzuları ilə magistr dissertasiyalarını müdafiə etdilər.

Müdafiədə Psixologiya departamentinin koordinatoru Mələk Kərimova və departamentin müəllimləri Dr. Ləman Verdiyeva və Dr. Ceyhun Alıyev iştirak edirdilər. Qaydaya uyğun olaraq iddiaçıların çıxışlarından sonra sual-cavab aparıldı. Sonda isə qiymətləndirilmə keçirildi və müdafiə başa çatdı.

## GRADUATE STUDENTS DEFEND MASTER THESISES

On December 9, 2022, the master's students of Khazar University's Psychology Department defended their master's theses on the following topics: Gulzar Guliyeva "Study of the manifestations of interpersonal conflicts between couples depending on the duration of marriage", Samad Eyvazov "Psychological issues of the effect of information stress on the adaptation process" and Jamila Maharramova "Psychological analysis of the relationship between mental stability and psychological stress level in doctors in pandemic conditions"

Coordinator of the Department of Psychology Melek Karimova and faculty members of the department Dr. Laman Verdiyeva and Dr.Jeyhun Aliyev participated in the defense. According to the rules, a question-and-answer session was held after the candidates' speeches. In the end, the assessment was carried out and the defense was completed.

# XƏZƏR UNİVERSİTETİNDƏ AVROPA İTTİFAQI ŞURASININ MİQRASİYA BÖHRANINA HƏSR EDİLMİŞ GÖRÜŞÜNÜN SİMULYASİYASI




2022-ci il dekabrın 13-də Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin təşkilatçılığı ilə Avropa İttifaqı Şurasının miqrasiya böhranına həsr edilmiş simulyasiya oyunu təşkil edilmişdir.

Erasmus+ Jean Monnet Module layihəsi çərçivəsində baş tutan simulyasiya oyunlarında Azərbaycanın 6 müxtəlif ali təhsil müəssisəsində və eləcə də 2 xarici ali təhsil müəssisəsində təhsil alan tələbələr iştirak etmişdir.

Simulyasiya oyunundan öncə Jean Monnet layihəsinin akademik koordinatorları Dr. Elmar Mustafayev və Zibər Hüseynova tərəfindən iştirakçılar Avropa İttifaqı və institutlarının səlahiyyətləri barəsində təlimatlandırılmış, üzv dövlətlərin dövlət və ya hökümət başçıları və Aİ Şurasının Prezidenti rollarına bölünmüşdür. Eyni zamanda, rollara ayrılmış tələbələrin qarşısında müvafiq olaraq təmsil etdikləri ölkələrin milli maraqları, hakim siyasi partiya və ya koalisiya hökümətinin siyasi ideologiyası, eləcə də ümumavropa maraqlarının dərindən araşdırılması tapşırığı qoyulmuşdur.

Avropa İttifaqı üzv dövlətlərinin dövlət və hökümət başçılarının görüşünü simulyasiya edən tələbələr sonda konsensusa gələ bilməsələr də, xarci sərhədlərin gücləndirilməsi üzrə davamlı müzakirələrin təşkil edilməsinə dair razılıq əldə edilmişdir.

# KHAZAR UNIVERSITY ORGANIZED A COUNTRYWIDE SIMULATION ON EU RESPONSE TO MIGRATION CRISIS: IRREGULAR MIGRATION & RETURN

On December 13, 2022, the Political Science and Philosophy Department of Khazar University organized a countrywide simulation on the meeting of the European Council over response of the EU on irregular migration and return.

Organized within the Erasmus+ Jean Monnet Module, the simulation of the European Council meeting was attended by students from 6 Azerbaijani HEIs and 2 HEIs of foreign countries.

Previously instructed by the academic coordinators of the Erasmus+ Jean Monnet project Dr. Elmar Mustafayev and Zibar Huseynova on the roles and competencies of the EU and its institutions, the students were split into the roles of heads of states or governments of the member-states, and the President of the European Council. The participant students were tasked with studying the position of their respective roles from the perspective of their national interest, interests and ideology of their ruling party or coalition governments, as well as the common European interests.

Despite the difficulties to find the common ground on the above-mentioned topics, the students simulating the EU summit acknowledged the importance of ensuring effective external border control.

# DİSSERTASİYA İŞİNİN İLKİN MÜZAKİRƏSİ
# PRELIMINARY DEFENCE OF THE DISSERTATION WORK

2022-ci il dekabrın 27-də Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin dissertantı Cəmilə Ağamalıyevanın 5714.01 – Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik ixtisasında filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin müzakirəsi keçirildi. İclasa İngilis dili və ədəbiyyatı departamentinin müdir əvəzi fil.f.d. Milana Abbasova sədrlik etdi. Dissertantın elmi rəhbəri AMEA Nəsimi adına Dilçilik İnstitutu Tətbiqi dilçilik şöbəsinin baş elmi işçisi fil.e.d., dos. Nəriman Seyidəliyev, elmi məsləhətçisi isə ADU-nun İngilis dilinin qrammatikası kafedrasının dosenti fil.e.d. Şəfaqət Mahmudovadır.

Müzakirələrdə Xəzər Universitetinin əməkdaşları ilə yanaşı, Azərbaycan Dillər Universitetindən, Slavyan Universitetindən, AMEA Nəsimi adına Dilçilik İnstitutundan da gələn dilçilər iştirak etdilər.

Müzakirənin nəticəsində dissertant iclasın iştirakçılarının müsbət rəyini alaraq, müdafiənin növbəti mərhələsinə buraxıldı.

On December 27, 2022, pre-defence of the dissertation work submitted by Jamila Agamaliyeva, PhD student of the Department of English Language and Literature of Khazar University to receive a Ph.D. degree in philology in the specialty of Comparative-historical and comparative-typological linguistics - 5714.01, was held. The pre-defence was chaired by Milana Abbasova, Ph.D. in Philology, acting head of the Department of English Language and Literature. The supervisor of the PhD candidate is Doctor of Philology, Associate Professor Nariman Seyidaliyev, Senior Researcher of the Department of Applied Linguistics of the Nasimi Institute of Linguistics of ANAS, and Doctor of Philology Shafagat Mahmudova, Associate Professor of the Department of English Grammar of AUL.

In addition to Khazar University employees, linguists from Azerbaijan University of Languages, Baku Slavic University, Nasimi Institute of Linguistics of ANAS took part in the discussions.

At the end of the pre-defence, the PhD candidate received the positive opinion of the participants of the meeting and was allowed to the next stage of the defense.

# ELMİ İŞLƏR ÜZRƏ KOMİTƏNİN İLK İCLASI
# FIRST MEETING OF COMMITTEE ON SCIENTIFIC AFFAIRS

UNIVERZITET U NIŠU
PRIRODNO-MATEMATIČKI FAKULTET

Yanvarın 9-da Bakı Biznes Universitetinin koordinatorluğu ilə "Azərbaycanda Rektorlar Konfransının yaradılması" (ECAR) adlı Erasmus+ layihəsi çərçivəsində Elmi işlər üzrə komitənin ilk onlayn iclası keçirilib. Avropa Komissiyasının maliyyə dəstəyi ilə icra edilən və Xəzər Universitetinin də tərəfdaş olduğu layihənin təlimində tərəfdaş universitetlərin nümayəndələri də iştirak edib. Görüş onlayn formatda keçirilib.

İclasda komitə üzvləri ilə tanışlıq, sahə üzrə ilkin müzakirələrin aparılması, komitənin funksiyaları, komitə sədrliyinə namizədliyə dair tələblər, həmçinin idarə heyəti və sədrinin seçilməsi qaydaları müzakirə olunub.

Səsvermə əsasında İdarə heyətinin sədri və müavinləri seçilib.

Qeyd edək ki, ECAR layihəsi çərçivəsində yaradılacaq Azərbaycan Rektorlar Konfrasının tərkibində 5 komitənin – Beynəmiləlləşmə üzrə, Tədris işləri və keyfiyyət təminatı üzrə, Elmi işlər üzrə, Strateji inkişaf üzrə və Tələbə və məzunlarla iş üzrə komitələrin fəaliyyəti də nəzərdə tutulub.

On January 9, under the coordination of Baku Business University, the first online meeting of the Committee on Scientific Affairs was held within the framework of the Erasmus+ project called "Establishment of Rectors Conference in Azerbaijan" (ECAR). Representatives of partner universities also participated in the training of the project, which was implemented with the financial support of the European Commission and in which Khazar University was also a partner. The meeting was held online.

At the meeting, acquaintance with committee members, preliminary discussions on the field, functions of the committee, requirements for candidacy for the chairmanship of the committee, as well as the rules for selecting the board and chairman were discussed.

The chairman and deputies of the Board of Directors were elected on the basis of voting.

Note that the Azerbaijan Rectors' Conference to be established within the framework of the ECAR project includes the activities of 5 committees - Internationalization, Educational Affairs and Quality Assurance, Scientific Affairs, Strategic Development, and Work with Students and Graduates.




# XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİN TÜRKİYƏYƏ SƏFƏRİ İLƏ BAĞLI GÖRÜŞ

# MEETING ON THE VISIT OF KHAZAR UNIVERSITY STUDENT DELEGATION TO TÜRKIYE

Xəzər Universitetinin rektoru İradə Xəlilova Türkiyə Respublikası Gənclər və İdman Nazirliyinin "Bakı - Kırşehir Tələbə Mübadiləsi" proqramı çərçivəsində Xəzər Universitetinin bir qrup tələbəsinin Türkiyəyə qarşıdakı səfəri ilə əlaqədar yanvarın 17-də onlarla görüşdü.

Qrupun rəhbəri – İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli proqramda iştirak edəcək tələbələr və səfərə hazırlıqla bağlı geniş məlumat verdi. İ.Xəlilova iştirakçıları təbrik edərək, onlara qarşıdakı maraqlı səfərdə uğurlar arzuladı.

Rector of Khazar University Irada Khalilova met with a group of students of Khazar University on January 17 regarding the upcoming visit to Türkiye within the framework of the " Türkiye -Azerbaijani Youth Exchange" program of the Ministry of Youth and Sports of the Republic of Türkiye.

The head of the group - director of Public Relations and Media Alovsat Amirbeyli gave detailed information about the students who will participate in the program and the preparation for the trip. I. Khalilova congratulated the participants and wished them success in the upcoming interesting trip.

# ELMİ ŞURANIN NÖVBƏTİ İCLASI
# THE NEXT MEETING OF SCIENTIFIC COUNCIL

Yanvarın 17-də Xəzər Universiteti Elmi şurasının növbəti iclası keçirildi. İclası universitetin rektoru dosent İradə Xəlilova açaraq, gündəlikdəki məsələləri elmi şura üzvlərinin nəzərinə çatdırdı.

Gündəliyin birinci məsələsi Xəzər Universitetinin akkreditasiyasına hazırlıq ilə bağlı oldu. Rektor İradə Xəlilova çıxış edərək, "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli Qərarında edilmiş dəyişikliklər barədə Şura üzvlərini məlumatlandırdı. Sədr bildirdi ki, akkreditasiya ilə bağlı sənədlər bütün Şura üzvlərinə göndərilib.

Sonra Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev təhsil müəssisələrinin akkreditasiyası qaydalarında mövcud olan istiqamətlər, onların meyarları və indikatorları haqqında geniş məlumat verdi. Məhəmməd Nuriyev bildirdi ki, akkreditasiya sənədlərinin hazırlanmasına bütün fakültələr, departamentlər və ştatda işləyən əməkdaşlar cəlb olunublar. Əlavə olaraq onu da qeyd etdi ki, bütün bu sənədlərin hazırlanması mart ayının ilk həftəsinə qədər tamamlanmalıdır.

Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova qeyd etdi ki, akkreditasiya ilə bağlı əksər məlumatlar departament tərəfindən təmin olunmalıdır. Akkreditasiya sənədlərinin hazırlanması ilə bağlı departament rəhbərlərinin sualları rektor İradə Xəlilova, prorektorlar Məhəmməd Nuriyev və Vlad Alex Vernygora tərəfindən cavablandırıldıqdan sonra gündəliyin ikinci məsələsi müzakirə edildi.

Gündəliyin ikinci məsələsində Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin dissertantı Cəmilə Rəhim qızı Ağamalıyevanın 5714.01 – "Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik" ixtisasında filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "İngilis və Azərbaycan dillərində ellipsislərin praqmatik xüsusiyyətləri" mövzusunda təqdim etdiyi dissertasiya işinin 27 dekabr 2022-ci ildə keçirilmiş ilkin müzakirəsinin protokolu elmi katib tərəfindən şura üzvlərinin nəzərinə çatdırıldı.

Elmi şuranın gündəliyindəki hər iki məsələ ilə bağlı müvafiq qərarlar qəbul edildi.

Cari məsələlər qismində rektor İradə Xəlilova bildirdi ki, 2023-cü ilin mart ayında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının 75 illik yubileyi qeyd olunacaq. Bununla bağlı Xəzər Universitetində bir sıra tədbirlər keçiriləcək.

On January 17, the next meeting of the Scientific Council of Khazar University was held. The meeting was opened by the rector of the university, associate professor Irade Khalilova, who brought the issues on the agenda to the attention of the members of the scientific council.

The first issue of the agenda was related to the preparation for the accreditation of Khazar University. In her speech rector Irada Khalilova informed the members of the Council about the changes made in the Decision of the Cabinet of Ministers of the Republic of Azerbaijan dated September 28, 2010 , No. 167 "On the approval of the Accreditation Rules of Educational Institutions". The chairman stated that documents related to accreditation have been sent to all members of the Council.

Then vice-rector for Educational Affairs Mahammad Nuriyev gave detailed information about the directions, their criteria and indicators in the rules of accreditation of educational institutions. Muhammad Nuriyev stated that all faculties, departments and full-time employees were involved in the preparation of accreditation documents. In addition, he noted that the preparation of all these documents should be completed by the first week of March.

Elza Samadova, dean of the School of Humanities, Education and Social Sciences, noted that most of the information related to accreditation should be provided by the department. After the questions of department heads regarding the preparation of accreditation documents were answered by rector Irade Khalilova, vice-rectors Mahammad Nuriyev and Vlad Alex Vernygora, the second issue of the agenda was discussed.

The second issue of the agenda is on the protocol of the preliminary discussion, held on December 27, 2022, of the thesis submitted by Jamila Rahim gizi Agamaliyeva, Ph.D. candidate in philology in the specialty 5714.01 - "Comparative-historical and comparative-typological linguistics" on the topic "Pragmatic features of ellipsis in English and Azerbaijani languages" , which was brought to the attention of the council members by the scientific secretary.

Decisions were made regarding both issues on the agenda of the scientific council.

As for current issues, Rector Irade Khalilova said that in March 2023, the 75th anniversary of the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isaxanli will be celebrated. In this regard, a number of events will be held at Khazar University.

## DEPARTAMENT MÜDİRİ BBNTÜRK, TRT AVAZ TELEKANALLARINDA

## DEPARTMENT HEAD ON AZERBAIJANI AND TURKISH TV CHANNELS

2023-cü il yanvarın 2-4-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu Türkiyənin BBNTürk, TRT Avaz telekanallarında Cənubi Qafqazda yaranan son vəziyyət, Azərbaycan-Ermənistan münasibətlərinin gələcəyi, Rusiya-Ukrayna müharibəsinin gedişatının 2023-cü ildə qlobal sistemə necə təsir edəcəyi və Avrasiyada şəkillənməkdə olan yeni geosiyasi vəziyyət barədə fikirlərini tamaşaçılarla bölüşmüşdür.

On January 2-4, 2023, Telman Nusratoghlu, head of the History and Archeology Department of Khazar University, shared his views with the audience on the recent situation in the South Caucasus, the future of Azerbaijan-Armenia relations, how the progress of the Russia-Ukraine war will affect the global system in 2023, and the new geopolitical situation taking shape in Eurasia on Turkey's BBNTürk, TRT Avaz, and Azerbaijan's arb24 channels.

## TRT AVAZ KANALINDA DEPARTAMENT MÜDİRİ HAQQINDA VİDEOREPORTAJ

2023-cü il yanvarın 18-də Türkiyənin TRT Avaz kanalı Tarix və arxeologiya departamentinin müdiri Dr. Telman Nüsrətoğlu haqqında videoreportaj hazırlamışdır. Telman Nüsrətoğlunun təhsil həyatı, elmi fəaliyyəti, Türkiyə-Azərbaycan münasibətlərinə baxışı və s. mövzuları əhatə edən reportajda Xəzər Universitetinn əməkdaşlarına da geniş yer verilmişdir.

## VIDEO REPORT ABOUT DEPARTMENT HEAD ON TRT AVAZ

On January 18, 2023, Turkish TRT Avaz channel prepared a video report about the head of the Department of History and Archeology, Dr. Telman Nusratoghlu. Khazar University's staff members were also given ample space in the report, which covers the educational life, scientific activities, views of Turkey-Azerbaijani relations of Telman Nusratoghlu.

## DEPARTAMENT MÜDİRİNİN TÜRKİYƏ TELEKANALLARINDA ÇIXIŞLARI

Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu 2023-cü il yanvarın 27-28-də Türkiyənin TRTHaber, CNNTürk, BBNTürk, TVNet televizyalarındakı çıxışlarında Azərbaycanın Tehrandakı səfirliyinə mənfur terror hücumunu, Azərbaycan-İran münasibətlərində yaşanan gərginliyin səbəblərini geniş şəkildə şərh etmişdir.

Telman Nüsrətoğlu çıxışlarında xüsusilə 44 günlük Qarabağ müharibəsində Azərbaycanın parlaq zəfərindən sonra İranın Cənubi Qafqaz siyasətində erməni meyilli, Azərbaycan əleyhinə xəttin qabarıq görünməyə başladığını, bu siyasətin İranın öz demoqrafik durumuyla da ziddiyyət təşkil etdiyini və rəsmi Tehranın Zəngəzur dəhlizinin açılması ilə də razılaşmadığını söyləyərək, bu siyasətlə normal qonşuluq münasibətlərinin və əlaqələrin davam etdirilməsinin imkansız olduğunu nəzərə çatdırmışdır.

## THE SPEECHS OF DEPARTMENT HEAD ON TURKISH TV CHANNELS

On January 27-28, 2023, Telman Nusratoghlu, head of History and Archeology Department, commented extensively on the heinous terrorist attack on the Azerbaijani embassy in Tehran and the causes of the tension in Azerbaijan-Iran relations in his speeches on TRTHaber, CNNTürk, BBNTürk, and TVNet televisions of Türkiye.

Telman Nusratoghlu said in his speeches that after the brilliant victory of Azerbaijan in the 44-day Karabakh war, the Armenian-oriented, anti-Azerbaijani line began to appear in Iran's South Caucasus policy, that this policy contradicts Iran's own demographic situation, and that official Tehran does not agree with the opening of the Zangezur Corridor. He pointed out that it is impossible to maintain neighborly relations with this policy.

# XƏZƏR UNİVERSİTETİNİN DOKTORANTI FƏRIBA FƏRHƏNGİNİN (İRAN, TƏBRİZ) TƏHSİL MÜDDƏTİNDƏ ÇAP OLUNMUŞ MƏQALƏLƏRİ

# PUBLISHED ARTICLES OF KHAZAR UNIVERSITY DOCTORAL STUDENT FARIBA FARHANGI DURING HER STUDY (İRAN, TABRIZ).

Xəzər Universitetində keçirilmiş konfransdakı (09.12-10.2021) məruzəsi əsasında hazırladığı "The Love Legend of East and West" adlı məqalə konfransın materialları toplusunda.

An article entitled " The Love Legend of East and West " based on her report at the conference held at Khazar University (09.12-10.2021), in the conference proceedings.

"The Impressive Voice of the Silenced Female Poets in Romanticism" adlı məqaləsi "International Journal of Linguistics and Literature" jurnalında (13.11.2021,10-cu cild, 2-ci buraxılış, iyul-dekabr 2021).

An article entitled "The Impressive Voice of the Silenced Female Poets in Romanticism " in "International Journal of Linguistics and Literature" (13.11.2021, Volume 10, Issue 2, July-December 2021).

*https://www.iaset.us/download/archives/18-12-2021-1639811021-8-%20%20IJLL-abstract-11.%20Abs.%20Reviewed%20-%20IJLL%20-Format-The%20Impressive%20Voice%20of%20the%20Silenced%20-Female%20Poets%20in%20Romanticism%20-%20Copy.pdf*

"Can Female Speak ? Anna Laetitia Barbauld , a Legacy for Women Poets " adlı məqaləsi International Journal of Linguistics, Literature and Translation jurnalında (29.11.2021, 4- cild, 11- ci buraxılış).

An article entitled "Can Female Speak ? Anna Laetitia Barbauld, a Legacy for Women Poets"in "International Journal of Linguistics,Literature and Translation" journal (29.11.2021,Volume 4, Issue 11).

*https://doi.org/10.32996/ijllt.2021.4.11.2*

"The Reframing Power of Marginalized Female Poets in Victorian Period" adlı məqaləsi "Şərq araşdırmaları" jurnalında (Nömrə: 24, 2021).

An article entitled "The Reframing Power of Marginalized Female Poets in Victorian Period" in "Şərq araşdırmaları"("Oriental Studies") journal (Number: 24, 2021).

*http://sha.az/uploads/article/az/2_2021/Eastern_Studies_2021_v_2.pdf*

Xəzər Universitetində keçirilmiş "International Conference on the Philosophy of Language, Literature, and Linguistics" konfransındakı (23-24 sentyabr 2021) məruzəsi əsasında hazırladığı "Revitalizing Silenced Femail Voices in Romantic and Victorian ages" adlı məqaləsi konfransın materialları toplusunda.

An article entitled "Revitalizing Silenced Female Voices in Romantic and Victorian ages" based on her report at the " International Conference on the Philosophy of Language, Literature, and Linguistic held at Khazar University (September 23-24, 2021), in the conference proceedings.

"A Pray to Fear, Anxiety, and Pain: The Voice of a Thoughtful Woman" adlı məqaləsi "International Journal of Linguistics, Literature and Translation" jurnalında (12.05.2022, 5-ci cild, 5-ci say).

An article entitled "A Pray to Fear, Anxiety, and Pain: The Voice of a Thoughtful Woman" in "Linguistics, Literature and Translation" journal (12.05.2022, Volume 5, Issue 5).

*https://doi.org/10.32996/ijllt.2022.5.5.16*

Həmmüəllifi olduğu "Delving into the relationship between teacher emotion regulation, self-efficacy, engagement, and anger: A focus on English as a foreign language teachers" adlı məqalə "Educational Psychology" (JCR Q1, Scopus Q1) (19.10.2022, Washington, D.C.) jurnalında.

An article entitled "Delving into the relationship between teacher emotion regulation, self-efficacy, engagement, and anger: A focus on English as a foreign language teachers" in "Educational Psychology" journal (JCR Q1, Scopus Q1) (19.10.2022, Washington, D.C.).

*https://www.frontiersin.org/articles/10.3389/fpsyg.2022.1019984/full*

Həmmüəllifi olduğu "Interventionist vs. interactionist models of dynamic assessment (DA) in the EFL classroom: Impacts on speaking accuracy and fluency (SAF), foreign language classroom anxiety (FLCA), and foreign language learning motivation (FLLM)" adlı məqalə "Language Testing in Asia" (Scopus Q1, England, London) jurnalında (20.09.2022).

An article entitled "Interventionist vs. interactionist models of dynamic assessment (DA) in the EFL classroom: Impacts on speaking accuracy and fuency (SAF), foreign language classroom anxiety (FLCA), and foreign language learning motivation (FLLM)" in "Language Testing in Asia" (Scopus Q1, England, London, 20.09.2022) journal.

*https://languagetestingasia.springeropen.com/articles/10.1186/s40468-022-00195-0*

"A Systematic Educational-Based Review of Stories and Poems: Seeking the Voice of Young Women in Charlotte Smith's and Anna Barbauld's Major Works - Are There Any Implications for Educational Context?" adlı məqaləsi "Hindawi Education Research International" (Scopus Q3) jurnalında (01.10.2022).

An article entitled "A Systematic Educational-Based Review of Stories and Poems: Seeking the Voice of Young Women in Charlotte Smith's and Anna Barbauld's Major Works - Are There Any Implications for Educational Context?" in "Hindawi Education Research International" (Scopus Q3, 01.10.2022) journal.

*http://hdl.handle.net/20.500.12424/4224246*

"Dil, Ədəbiyyat və Dilçilik fəlsəfəsi üzrə Beynəlxalq Konfrans"ındakı (30.11.2022) məruzəsi əsasında hazırladığı "The Influence of Young Women's Voices in the Period of Romantic Period" adlı məqaləsi konfransın materialları toplusunda.

An article entitled "The Influence of Young Women's Voices in the Period of Romantic Period" based on her report at the "International Conference on the Philosophy of Language, Literature, and Linguistics" held at Khazar University (30.11.2022), in the conference proceedings.

Həmmüəllifi olduğu "Examining the Effects of Cue Cards on EFL Learners' Speaking Fluency, Accuracy, and Speaking Anxiety" adlı məqalə "Hindawi Education Research International" jurnalında (Scopus Q3) (03.01.2023).

An article entitled "Examining the Effects of Cue Cards on EFL Learners' Speaking Fluency, Accuracy, and Speaking Anxiety" in Hindawi Education Research International (Scopus Q3) (03.01.2023).

*https://www.hindawi.com/journals/edri/2023/8428325/*

Almaniyanın Berlin şəhərində keçirilmiş "Female Voice in Romantic and Victorian Ages" (12-13. 1.2023) adlı Beynəlxalq elmi konfransda məruzəsi əsasında hazırladığı "Female Voice in Romantic and Victorian Ages" adlı məqalə konfransın materialları toplusunda (15. 1. 2023).

An article entitled "Female Voice in Romantic and Victorian Ages" based on her report at the International scientific conference "Fundamentals and trends of modern learning" held in Berlin Germany (12-13. 1.2023), in the conference proceedings (15. 1. 2023).

*https://ojs.publisher.agency/index.php/FTML/issue/view/13/37*




## DÜNYANIN ƏN BÖYÜK ÜZƏN KİTABXANASI

Göyərtəsində kitabxana və kitab sərgisi olan "MV Logos Hope" gəmisi yanvarın 4-də Misirin turistik şəhəri Port-Səidə gəlib və 20 gün burada qalıb. Bu, onun son 12 ildə ölkəyə ikinci səfəridir.

Kitabxana Süveyş Kanalı iqtisadi bölgəsində minlərlə ziyarətçinin üzünə açıq olub və gəmiyə 350 nəfər xidmət göstərib. Buradan İordaniyanın Əqəbə liman şəhərinə gedib.

132 metrlik gəmi dünyanın ən böyük üzən kitabxanasıdır və göyərtəsində 60 ölkədən 400 könüllü var. Gəmi Almaniyanın "Hamı üçün yaxşı kitablar" xeyriyyə təşkilatına məxsusdur və məqsədi bütün dünyada insanların mütaliəyə maraq göstərməsini təmin etməkdir. O, əvvəllər Liviyanın Benqazi limanında və Birləşmiş Ərəb Əmirliklərində dayanıb. 13 illik fəaliyyəti ərzində "MV Logos Hope" 150 ölkədə 480 limana baş çəkib və gəmiyə 49 milyondan çox ziyarətçi cəlb edilib.




**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi universitetin əməkdaşı Elşad Umarova oğlu

**Araz Umarovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi